YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

03 sentyabr 2026-cı il, cümə axşamı
№ 158 (7225)
Qiyməti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!



# Bişkekdən verilən mesajlar...



Bax səh. 3

# O, əvvəlcə Naxçıvanı, sonra isə bütün Azərbaycanı qorudu

## Ulu Öndər Heydər Əliyev 3 sentyabr 1991-ci ildə Naxçıvan Ali Sovetinin Sədri seçilib

Bax səh. 2

# Mərkəzi Asiya, Azərbaycan və Çin arasında bağlantı qlobal əməkdaşlığın, təhlükəsizliyin mühüm amilidir

Bax səh. 3



## Ölkəmiz Rəqəmsal Əməkdaşlıq Təşkilatına üzv olub

Bax səh. 6

## Mehriban Əliyevanın təşəbbüsü ilə...

### TƏBİB sistemində 72 mindən çox tibb işçisi əməkhaqqı artımına sevinəcək

Bax səh. 4




## Azərbaycan beynəlxalq platformalarda fəal təmsil olunur

Bax səh. 5

## Azərbaycan BMT-nin vacib tərəfdaşıdır

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də Birləşmiş Millətlər Təşkilatının (BMT) Azərbaycanda yeni təyin olunmuş rezident-əlaqələndiricisi Dmitri Şlapaçenkonu qəbul edib.

AZƏRTAC xəbər verir ki, Dmitri Şlapaçenko etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Ölkəmizlə BMT arasında əlaqələrə toxunan Prezident İlham Əliyev Azərbaycanda COP29 və Ümumdünya Şəhərsalma Forumu kimi böyükmiqyaslı BMT tədbirlərinin keçirildiyini vurğuladı, bu il də BMT-nin Sivilizasiyalar Alyansı ilə birlikdə Mədəniyyətlərarası Dialoq Forumunun təşkil ediləcəyini dedi...

Bax səh. 3

## 34 milyard manatdan çox...

2026-cı il avqustun 1-nə Azərbaycan iqtisadiyyatına kredit qoyuluşu 34 milyard 155,1 milyon manat təşkil edib. Bu, əvvəlki ayla müqayisədə 0,8 faiz, yanvar ayı ilə müqayisədə isə 6,9 faiz çoxdur. Son bir illik nisbətdə isə kredit axınları 12,9 faiz artıb. Kredit qoyuluşunun 23 milyard 593,9 milyon manatı və yaxud 69,1 faizi özəl bankların payına düşüb. Bu, 1 il əvvələ nisbətən 11,8 faiz çoxdur. Mərkəzi Bankın (MB) məlumatına görə, bu dövrdə dövlət banklarının kredit qoyuluşu isə 8 milyard 501,4 milyon manat təşkil edib və illik müqayisədə 14,9 faiz artıb.

Avqustun 1-nə olan dövrdə bank olmayan kredit təşkilatlarının (BOKT) kredit qoyuluşu isə 2 milyard 059,8 milyon manat olub. BOKT-lar son bir ildə iqtisadiyyata pul axınını 17,1 faiz artırıb və ümumi kredit qoyuluşundakı xüsusi çəkisi 5,8 faizdən 6 faizə yüksəlib...

Bax səh. 5

## ANAMA ilə ARMAC arasında Anlaşma Memorandumu

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) və BMT-nin Azərbaycandakı nümayəndəliyinin birgə təşkilatçılığı ilə “Şəhərlərin bərpası üçün humanitar minatəmizləmə: Təhlükəsiz yaşayış məskənləri üçün mükəmməllik standartlarının müəyyənləşdirilməsi” mövzusunda IV Beynəlxalq Minatəmizləmə Konfransı çərçivəsində ANAMA ilə Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyasına (ASEAN) üzv ölkələrin mina təhlükəsi ilə mübarizə üzrə regional təşkilatı olan ASEAN Regional Minatəmizləmə Mərkəzi (ARMAC) arasında Anlaşma Memorandumu imzalanıb.

Humanitar minatəmizləmə sahəsində əməkdaşlığa dair...

Bax səh. 6

## Almaniyanın 3 əyaləti parlament seçkilərinə hazırlaşır

Almaniyada bu ay 3 əyalətdə keçiriləcək regional parlament (Landtaq) seçkiləri ölkənin siyasi gündəminin əsas mövzusuna çevrilib.

AZƏRTAC xəbər verir ki, sentyabrın 6-da Saksoniya-Anhalt əyalətində, sentyabrın 20-də isə Berlin və Meklenburq-Ön Pomeraniyada keçiriləcək seçkilər ərəfəsində rəy sorğuları siyasi qüvvələr arasındakı balansın dəyişdiyini göstərir.

Saksoniya-Anhaltda keçiriləcək səsverməyə bir neçə gün qalmış aparılan sorğularda sağçı populist Almaniya üçün Alternativ (AfD) partiyası 42 faiz göstərici ilə birinci sırada qərarlaşıb. Sorğularda Xristian Demokratlar Birliyi...

Bax səh. 7



## Fransada seçki ajiotajı - sağçılarla solçular bir-biri ilə rəqabətdə

Bax səh. 7

## Hörmüz boğazı bağlanıb?



Bax səh. 7

# O, əvvəlcə Naxçıvanı, sonra isə bütün Azərbaycanı qorudu



## Ulu Öndər Heydər Əliyev 3 sentyabr 1991-ci ildə Naxçıvan Ali Sovetinin Sədri seçilib



Hər bir ölkənin və xalqın həyatında zaman-zaman onların taleyini dəyişən mühüm hadisələr baş verir. Tarixin bu günündə - 3 sentyabr 1991-ci ildə Ulu Öndər Heydər Əliyevin Naxçıvan Ali Sovetinin Sədri seçilməsi də belə müstəsna önəm daşıyan hadisələrdən biridir. Bütün Naxçıvan əhalisinin böyük etimadına əsaslanan bu seçimlə o dövrdə ağır blokada vəziyyətində qalan muxtar respublikanın tənəzzülünün, işğalının, bütünlüklə süqutunun qarşısı alındı və onun sabitliyi, təhlükəsizliyi, sonrakı mərhələdə isə inkişafı təmin edildi.

Bu tarixi seçimin, həmçinin bütün Azərbaycan üçün müstəsna önəmi var idi. Bugünkü qüdrətli müstəqil Azərbaycanın təməli məhz həmin seçimlə qoyuldu. Aradan on illər ötəndən sonra Ulu Öndər Heydər Əliyevin Naxçıvanın rəhbərliyinə gəlməsinin strateji əhəmiyyəti daha aydın şəkildə dərk olunur. Hazırda Azərbaycan cəmiyyətində belə bir möhkəm və əsaslı qənaət formalaşıb ki, əgər ötən əsrin əvvəllərində Ulu Öndər əvvəlcə Naxçıvana, sonrakı mərhələdə isə ikinci dəfə Azərbaycanın siyasi rəhbərliyinə qayıtmasa idi, bugünkü milli maraqlarını qətiyyətlə qoruyan, dünya miqyasında orta güc dövləti kimi qəbul edilən müstəqil Azərbaycandan söhbət aça bilməzdik. Böyük siyasətçi Heydər Əliyevin müstəsna missiyası heç vaxt unudulmayacaq, hər zamam minnətdarlıqla xatırlanacaq. O, Naxçıvanda siyasi fəaliyyətə qayıdışı ilə əvvəlcə Naxçıvanı, sonra isə bütün Azərbaycanı xilas etdi, müstəqilliyimizi qorudu. Heydər Əliyevin xilaskarlıq missiyası bir tərəfdən Onun zəngin dühasına, siyasətçi bacarığına, uzaqgörənliyinə və uzun illərin təcrübəsinə əsaslanırdısa, digər tərəfdən də bu fədakarlığın təməlində xalqa, Vətənə sonsuz bağlılıq, vətənpərvərlik, azərbaycançılıq dayanırdı.

## Doğma diyar sədaqətli oğlunu böyük sayğı ilə qarşıladı

O dövrdə baş katib M.Qorbaçovun yanlış siyasətinə etiraz əlaməti olaraq keçmiş ittifaqdakı tutduğu bütün yüksək vəzifələrdən istefa verən Heydər Əliyev bir müddət Moskvada yaşadı. Ancaq qürbət Onu sıxırdı, xalqının, doğma insanların əhatəsində olmaq istəyirdi. Onun mənalı həyatının ən qaynar çağları ötən əsrin 70-80-ci illərində bütün varlığı ilə Azərbaycana xidmətdə keçmişdi. O dövrün ideoloji müxtəlifliyinə, tələblərin və çağırışların fərqli olmasına baxmayaraq, Heydər Əliyev vicdanla, Vətəninə sonsuz məhəbbətlə çalışaraq Azərbaycanın sabahı, gələcək inkişafı, xalqın milli özünüdərki üçün zəruri olan fundamental əsaslar yaratmağa nail olub. Bugünkü qüdrətli müstəqil Azərbaycan məhz həmin möhkəm əsaslar üzərində dayanaraq inkişaf edir, zəfərlərə doğru irəliləyir. Vətənə, xalqa sədaqətli oğul olan Heydər Əliyev yenə də Azərbaycana xidmət etmək barədə düşünürdü. Beləliklə, O, Moskvadan Bakıya dönməyə qərar vermişdi. Bu qayıdış 1990-cı il iyulun 20-də gerçəkləşdi.

Həmin dövrdə Heydər Əliyev yaxşı başa düşürdü ki, keçmiş ittifaq rəhbərliyi tərəfindən Azərbaycana qarşı məkrli planlar həyata keçirilə bilər. O, bununla bağlı müxtəlif mənbələrdən siqnallar almışdı. Elə Onun özünün də həyatı təhlükə qarşısında idi. Erməni - M.Qorbaçov mafiyası Heydər Əliyevin varlığını Azərbaycana qarşı məkrli planlarını həyata keçirmək yolunda ən böyük maneə hesab edirdi. Belə bir şəraitdə Heydər Əliyev xalqı ilə bir yerdə olmaq, ona arxa-dayaq durmaq istəyirdi. Lakin imperiya nökərləri - bəhs olunan dövrdə Azərbaycanın rəhbərliyində təmsil olunan şəxslər Heydər Əliyevin Bakıya qayıdışını kresloları üçün təhlükə hesab edərək Onun paytaxtda qalmasını əngəllədilər. Bu, nankorluq idi. Xatırladaq ki, həmin "kreslo aşiqləri"nin bir çoxunu zamanında məhz Heydər Əliyev irəli çəkərək yüksək vəzifələrə təyin etmişdi.



Bakıda qalmasına imkan verilməyən Ulu Öndər doğulduğu Naxçıvana üz tutdu və burada doğma diyarın insanları Onu böyük sayğı ilə qarşıladılar. Heydər Əliyev bacısının kiçik evində yerləşmişdi. Ancaq bu kiçik ev böyük bir ziyarət məkanına çevrilmişdi. Qədim diyarın hər bir bölgəsindən bura insanlar axın edir, Heydər Əliyevlə görüşməyin xoşbəxtliyini yaşamaq istəyirdilər. İnsanlar el adətincə əziz qonaqlarına özlərinin hazırladıqları sovqatları gətirir, Onun gəlişi münasibətilə qurbanlar kəsirdilər. 22 iyul 1990-cı il tarixdə axşamüstü Naxçıvan şəhərinin mərkəzi hissəsi, Azadlıq meydanı insan selinə qərq olmuşdu. Burada Ulu Öndərin doğma diyara qayıdışı münasibətilə izdihamlı mitinq keçirildi. Heydər Əliyevin qayıdışı sonsuz məhrumiyyətlərlə üzləşən Naxçıvan əhalisində sabaha böyük inam yaratmışdı.

## Ulu Öndərin böyük cəsarəti - Naxçıvanda Azərbaycanın gələcək müstəqilliyi naminə mühüm addımlar atıldı

Həmin ilin payızında Heydər Əliyev Babək rayonunun Nehrəm kəndindən Azərbaycan Respublikasının Ali Sovetinə deputat seçildi. Ulu Öndər, eyni zamanda, Naxçıvan Ali Sovetinə də deputat seçilmişdi. Muxtar respublikanın Ali Sovetinin seçkilərdən bir qədər sonra - 17 noyabr 1990-cı il tarixində çağırılan sessiyasına sədrlik Heydər Əliyevə həvalə olundu. Sessiyada Ulu Öndərin təşəbbüsü ilə Naxçıvan Ali Sovetinin adı dəyişdirilərək onun Naxçıvan Respublikasının Ali Məclisi adlandırılması haqqında qərar çıxarıldı, Azərbaycan Xalq Cümhuriyyətinin o vaxtlar çoxlarının tanımadığı üçrəngli bayrağı Naxçıvan Ali Məclisində qaldırıldı. Eyni zamanda, Heydər Əliyevin təşəbbüsü ilə 1991-ci il avqustun 26-dan Naxçıvan Muxtar Respublikası ərazisində Azərbaycan Kommunist Partiyasının fəaliyyəti dayandırıldı, onun bütün strukturları ləğv edildi.

Uzaqgörən lider Heydər Əliyev daim xalqa müstəqillik ideyaları aşılayırdı. O, Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 7 mart tarixli sessiyalarında böyük cəsarət nümayiş etdirərək Dağlıq Qarabağla, respublikamızın müstəqilliyi ilə bağlı fikirlərini açıq şəkildə dilə gətirdi. 1991-ci il martın 17-də keçmiş Sovet İttifaqının saxlanması ilə bağlı keçirilən referendumu yada salaq. Respublikanın o vaxtkı rəhbərlərinin loyallığının, qətiyyətsizliyinin, müstəqillik ideyalarından uzaq olmalarının nəticəsi idi ki, Azərbaycan da həmin referenduma qoşuldu. Lakin burada da Heydər Əliyev nə qədər qətiyyətli olduğunu nümayiş etdirdi. Ulu Öndər Naxçıvanın referendumda iştirak etməməsi ilə bağlı çağırış etdi və keçmiş ittifaqın, Azərbaycanın sabiq rəhbərliyinin təkidlərinə, hədə-qorxularına rəğmən bu çağırışını geri götürmədi. Beləliklə də, Naxçıvan saxta referenduma qoşulmadı. Naxçıvanda Ulu Öndər tərəfindən belə bir cəsarətli qərarın verilməsi bütün Azərbaycan miqyasında müstəqilliyimizin bərpasına böyük inam yaratdı, xalqda mübarizə əzmi formalaşdırdı.

1991-ci il avqustun 30-da Ali Sovetin xalqın tələbi ilə çağırılmış növbədənkənar sessiyasında Heydər Əliyev Azərbaycanın müstəqilliyinin elan olunması təklifi ilə çıxış etdi. Bunun nəticəsində həmin sessiyada "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" Bəyannamə qəbul edildi. Azərbaycan parlamenti 1991-ci il oktyabr ayının 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı"nı qəbul etdi və bununla da respublikamız XX yüzillikdə ikinci dəfə müstəqilliyinə qovuşdu.

O dövrdə Ulu Öndərin Naxçıvana və bütün Azərbaycan xalqına böyük məhəbbətlə atdığı bu kimi addımlar əsl cəsarət nümunəsi idi. Qeyd etmək yerinə düşər ki, bəhs olunan dövrdə hələ Sovet İttifaqı Kommunist Partiyası fəaliyyət göstərirdi. Heydər Əliyev isə təhdidlərdən, özü və ailəsi üçün yarana biləcək təhlükələrdən çəkinməyərək, respublikamızın gələcək taleyi baxımından müstəsna əhəmiyyət daşıyan qərarların qəbul olunmasına nail olurdu.

## Möhkəm həmrəylik mühitində muxtar respublikanın xilası

Həmin dövrdə Naxçıvan Muxtar Respublikasının blokada şəraitində olması, sosial-iqtisadi durumunun bərbadlığı, mərkəzi hakimiyyətin muxtar qurum üzərində oynamağa çalışdığı oyunlar Naxçıvanın vəziyyətini olduqca mürəkkəbləşdirmişdi. Yalnız 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Sovetinin Sədri seçilən Heydər Əliyevin gərgin fəaliyyəti və səyləri sayəsində muxtar respublikada sabitlik təmin edildi və Naxçıvanda sosial-iqtisadi vəziyyət yaxşılaşdı. Müharibənin davam etdiyi, sənaye və ərzaq məhsullarının çatışmadığı, elektrik enerjisinin olmadığı şəraitdə Naxçıvan MR Ali Sovetinin Sədri seçilən Heydər Əliyev həyata keçirdiyi islahatlar, gördüyü tədbirlər sayəsində muxtar respublikada sabitlik və həmrəylik təmin olundu. Heydər Əliyev Özünün şəxsi nüfuzundan və yüksək diplomatik bacarığından istifadə edərək qonşu Türkiyənin, İranın siyasi rəhbərliyi ilə təmasları gücləndirdi və blokada şəraitində yaşayan muxtar respublikanı erməni təcavüzündən, aclıqdan, səfalətdən qorudu. Xüsusilə də 24 mart 1992-ci il tarixində Ankarada Naxçıvan MR-lə Türkiyə Cümhuriyyəti arasında işbirliyi protokolunun imzalanması bu baxımdan müstəsna əhəmiyyətə malikdir.

Naxçıvanda, sözün əsl mənasında, "Xalq-Heydər" və "Heydər-Xalq" birliyi yaranmışdı. Bu sarsılmaz birlik istənilən arzuolunmaz cəhdin qarşısını almağa qadir idi. 24 oktyabr 1992-ci il tarixində AXC-Naxçıvan şöbəsinin silahlı dəstələri və Ordubad rayon polisi tərəfindən Naxçıvanda dövlət çevrilişinə cəhd göstərildi. Silahlı dəstələr ultimatum dili ilə danışır, o cümlədən də Daxili İşlər Nazirliyinin və Teleradio Verilişləri Komitəsinin binasını boşaltmağı tələb edirdilər. Lakin onlar vacib bir faktoru - xalqın Heydər Əliyevə rəğbətini yaddan çıxarmışdılar. Minlərlə Naxçıvan sakini dövlətçiliyin müdafiəsinə qalxdı və Heydər Əliyevin ətrafında birləşdi. Məhz xalqın Ulu Öndərlə sıx həmrəyliyi sayəsində xəyanətkarların mənfur planı pozuldu və dövlət çevrilişi cəhdinin qarşısı alındı. Xalqının Ona olan sonsuz rəğbətindən, məhəbbətindən vəcdə gələn Ulu Öndər rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının (YAP) 1999-cu ildə keçirilən qurultayında bunu çox təsirli şəkildə ifadə edərək deyib: "Nə Qorbaçov hakimiyyəti, nə Vəzirov hakimiyyəti, nə Mütəllibov hakimiyyəti, nə də Əbülfəz Elçibəy hakimiyyəti - heç birisi Heydər Əliyevi Azərbaycan xalqının qəlbindən çıxara bilmədi..."

## YAP-ın yaranması - bütün ölkəyə rəhbərliyin məsuliyyəti

Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda Yeni Azərbaycan Partiyasının yaranması Azərbaycanın müstəqillik yolunda mühüm bir mərhələni təşkil edir. O dövrdə ölkəni bürüyən xaos şəraitində 1992-ci il oktyabr ayının 16-da 91 nəfər ziyalı Heydər Əliyevə müraciət ünvanladı. Heydər Əliyev ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi. Beləliklə, 1992-ci il noyabrın 21-də Naxçıvanda keçirilən təsis konfransında Yeni Azərbaycan Partiyası təsis edildi və Heydər Əliyev partiyanın Sədri seçildi.

YAP-ın yarandığı vaxtdan cəmi 6 ay sonra hakim patiyaya çevrilməsi xalqın Heydər Əliyevə böyük inamının ifadəsi idi. Ölkənin vətəndaş müharibəsi, xarici təcavüzlə üz-üzə qaldığı bir dönəmdə xalq təkidlə Heydər Əliyevin Azərbaycanın siyasi rəhbərliyinə qayıtmasını tələb etdi. Naxçıvanı qoruyan Heydər Əliyev xalqın inamının qırılmasına imkan vermədi, 1993-cü ilin yayında Bakıya gəldi və ölkəyə rəhbərliyin məsuliyyətini öz üzərinə götürdü. Bu dəfə Heydər Əliyev xilaskarlıq missiyasını bütün Azərbaycan miqyasında həyata keçirdi. Onun aldığı müdrik qərarlar sayəsində ölkəmiz sabitliyə, həmrəyliyə və inkişafa istiqamətləndi.

## Zirvələrə yüksələn Azərbaycan

Yeni mərhələdə də müstəqilliyimiz etibarlı əllərdədir. Son 22 ildə Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə müstəqilliyini möhkəmlətməklə, milli maraqlarını qorumaqla zirvələrə yüksəlib. Prezident İlham Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycanın qazandığı ən böyük uğur isə ölkənin ərazi bütövlüyünün və suverenliyinin tam təmin edilməsidir.

Bu gün qalib Azərbaycan xalqı qürurla yaşayaraq böyük inamla daha güclü Azərbaycan qurur. Ölkəmizdə uzunmüddətli sabitlik və möhkəm həmrəylik mühiti var. Eyni zamanda, qalib Azərbaycanın sülh gündəliyi beynəlxalq birlik tərəfindən qəbul olunub. Müharibə başa çatandan sonra Prezident İlham Əliyevin irəli sürdüyü sülh təşəbbüsü ötən il avqustun 8-də Vaşinqtonda Azərbaycanla Ermənistan arasında razılaşdırılmış yekun sülh sazişinin paraflanması ilə məntiqi sonluğa çatıb. Hazırda regionda real sülh şəraiti var. Azərbaycanla Ermənistan arasında iqtisadi əsasda təmaslar qurulur, cəmiyyətlərdə etimad mühiti formalaşdırılır. Eyni zamanda, işğaldan azad olunmuş ərazilərin sürətlə bərpası, Qarabağın yenidən dirçəldilməsi, burada məskunlaşmanın uğurla həyata keçirilməsi müstəqil Azərbaycanın gücünü bütün dünyaya nümayiş etdirir.

*Mübariz ABDULLAYEV*

# Mərkəzi Asiya, Azərbaycan və Çin arasında bağlantı qlobal əməkdaşlığın, təhlükəsizliyin mühüm amilidir

## Prezident İlham Əliyev Çin Ali Xalq Prokurorluğunun Baş prokurorunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də Çin Xalq Respublikasının Ali Xalq Prokurorluğunun Baş prokuroru Yinq Yonqun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinə Şanxay şəhərinin prokuroru Çen Yong, Ciangsu əyalətinin prokuroru Cjao Tyeşi və Qansu əyalətinin prokuroru Şen Cian daxildir.

Görüşdə çıxış edən Prezident İlham Əliyev dedi:

- Xoş gəlmisiniz. Bilirəm ki, səfəriniz yekunlaşır. Siz Azərbaycana çox vacib səfər edirsiniz. Əminəm ki, səfəriniz çox uğurlu idi. Bu səfər münasibətlərimizin bütün sahələrdə daha da inkişafına xidmət edəcək. Ümid edirəm ki, siz ölkəmizdən xoş təəssüratlarla ayrılacaqsınız. Biz sizin səfərinizi strateji tərəfdaşlıq münasibətləri çərçivəsində çox əhəmiyyətli hesab edirik.

Bildiyiniz kimi, aprel ayından etibarən Çin və Azərbaycan artıq hərtərəfli strateji tərəfdaşlıq çərçivəsində fəaliyyət göstərir. Ötən il ölkənizə dövlət səfərimdə mənə göstərilən qonaqpərvərliyi böyük minnətdarlıq hissi ilə xatırlayıram. Çin Xalq Respublikasının Sədri Si Cinpin və digər yüksəksəviyyəli rəsmilərlə müzakirələrim bir daha göstərir ki, hər iki ölkə bir-birini çox yaxşı dost hesab edir.

Əlbəttə ki, Çin şirkətlərində Azərbaycanda fəaliyyət göstərmək üçün böyük marağın olduğunu görməyə çox şadıq. Aprel ayından etibarən ölkələrimiz arasında fasiləsiz qarşılıqlı gediş-gəliş var. Çin şirkətləri həm investor, həm də podratçı qismində Azərbaycanda layihələrdə fəal iştirak edirlər. Bir çox vacib layihələr artıq icra olunub, lakin bir çoxları da icra mərhələsindədir.

Əlbəttə ki, hər iki ölkənin suverenliyinə və ərazi bütövlüyünə güclü qarşılıqlı dəstəyi Çinin və Azərbaycanın beynəlxalq hüquq normalarına sadiq olduğunu əyani şəkildə göstərir. Dünən "ŞƏT plyus" formatında Bişkekdə keçirilən yüksəksəviyyəli görüşdə Sədr Si Cinpin hüquq normaları, davranış qaydaları, beynəlxalq münasibətlər, qlobal xəritədə hər bir ölkənin bərabər olması haqqında danışdı. Biz bu çox aydın baxışla tam razıyıq. Qarşılıqlı dəstək, bir-birinin daxili məsələlərinə qarışmama, dünya miqyasında hər bir ölkənin bərabər şəkildə təmsil olunması və qarşıdurmaya yox, əməkdaşlığa yönəlmiş siyasət bizim strategiyaya tamamilə uyğundur.

Əlbəttə ki, əməkdaşlığımızın vacib seqmenti bağlantıdır. Sədr Si Cinpinin təşəbbüsü ilə həyata keçirilən "Bir kəmər, bir yol" layihəsi Azərbaycan tərəfindən tamamilə dəstəklənir. Biz bunu təkcə bəyanatlarla deyil, praktiki addımlarla göstəririk. Bu gün Mərkəzi Asiya, Azərbaycan və Çin arasında bağlantı qlobal əməkdaşlığın, təhlükəsizliyin mühüm amilidir. Keçən ay mən Mərkəzi Asiyanın iki ölkəsinə dövlət səfəri etdim. Növbəti ay mən Mərkəzi Asiyanın üçüncü bir ölkəsini ziyarət edəcəyəm və əlbəttə ki, bizim danışıqların mühüm hissəsi bağlantı mövzusudur. Burada Çin yüklərin həcmi nöqteyi-nəzərdən əsas oyunçudur.

Biz sizin birbaşa məsul olduğunuz sahədə əməkdaşlıq və güclü tərəfdaşlıq üçün böyük potensial görürük. Mən şadam ki, həmkarlarınızla danışıqlar aparmaq, ölkə ilə tanış olmaq və Azərbaycanı daha yaxından tanımaq üçün burada bir neçə gün keçirəcəksiniz.

Nəhayət sonuncu məsələ dostluğun və qarşılıqlı etimadın əlaməti ilə bağlıdır. Bu da hər iki ölkəyə səfərlər üçün viza tələbinin aradan qaldırılmasıdır. İndi bizim vətəndaşlar hər hansı bir viza tələbi olmadan səyahət edə bilərlər. Bu da dostluğun çox mühüm əlamətidir. Sizə ən xoş arzularımı çatdırır, ölkənizə sağsalamat qayıtmağınızı arzulayıram.

***

Sonra Çin Ali Xalq Prokurorluğunun Baş prokuroru Yinq Yonq çıxış edərək dedi:

- Zati-aliləri, cənab Prezident İlham Əliyev.

Mən Baş prokuror Kamran Əliyevin dəvəti ilə Azərbaycana səfərə gələn prokurorlardan ibarət Çin nümayəndə heyətinə rəhbərlik edirəm. Baş prokuror Kamran Əliyev bizim prokurorluq orqanları ilə mübadiləyə və əməkdaşlığa çox böyük önəm verir, dostluğu və əməkdaşlığı gücləndirmək üçün hər iki prokurorluq orqanlarını güclü təşviq edir.

Bu səfərdə mən Azərbaycana gələn nümayəndə heyətinə rəhbərlik edirəm. Bu, iki lider arasında hərtərəfli strateji tərəfdaşlığın təşviqi məqsədilə mühüm ortaq anlaşmanı həyata keçirmək və iki ölkənin prokurorluq orqanları, məhkəmə sistemləri arasında əməkdaşlığı gücləndirmək üçün atılan konkret addımdır.

İki gün əvvəl mən Milli Məclisin sədri Sahibə Qafarova, Baş prokuror Kamran Əliyev və Ali Məhkəmənin sədri İnam Kərimovla görüşdüm. Görüşlərimiz çox məhsuldar oldu. "ŞƏT plyus" formatında keçirilən tədbirdə iştirakınızdan sonra məni və nümayəndə heyətimi qəbul etmək üçün dəyərli vaxtınızı ayırmağınız məni məmnun edir. Mən buna görə Sizə prokurorluq orqanları adından və öz adımdan səmimi minnətdarlığımı ifadə etmək istəyirəm.

Səfərdən əvvəl Sədr Si Cinpinə Azərbaycana səfər çərçivəsində nümayəndə heyətimizin tərəfinizdən qəbul olunacağı barədə məruzə etdim. Sədr Si Cinpin səmimi salamlarını və arzularını Sizə çatdırmağımı məndən xahiş etdi.

Cənab Prezident, Çin və Azərbaycan səmimi dostlar, bərabərhüquqlu tərəfdaşlar və qarşılıqlı faydaya əsaslanan əməkdaşlığa quran ölkələrdir. Azərbaycanın Ümummilli Lideri Heydər Əliyev iki ölkə arasında dostluq münasibətlərinin möhkəm təməlini qoyub. İki ölkə arasında diplomatik münasibətlər qurulduqdan sonra hər iki ölkə qarşılıqlı hörmət, ədalət, bərabərlik və əməkdaşlıq prinsiplərinə, həmçinin qarşılıqlı faydaya əsaslanan münasibətlərə sadiq qalaraq, dərin dostluğun və qarşılıqlı etimadın formalaşmasına nail olub.

Prezident İlham Əliyev Çin Xalq Respublikasının Sədri Si Cinpinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Sədr Si Cinpinə çatdırmağı xahiş etdi.

# Azərbaycan BMT-nin vacib tərəfdaşıdır

## İlham Əliyev BMT-nin Azərbaycanda yeni təyin olunmuş rezident-əlaqələndiricisini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də Birləşmiş Millətlər Təşkilatının (BMT) Azərbaycanda yeni təyin olunmuş rezident-əlaqələndiricisi Dmitri Şlapaçenkonu qəbul edib.

AZƏRTAC xəbər verir ki, Dmitri Şlapaçenko etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Ölkəmizlə BMT arasında əlaqələrə toxunan Prezident İlham Əliyev Azərbaycanda COP29 və Ümumdünya Şəhərsalma Forumu kimi böyükmiqyaslı BMT tədbirlərinin keçirildiyini vurğuladı, bu il də BMT-nin Sivilizasiyalar Alyansı ilə birlikdə Mədəniyyətlərarası Dialoq Forumunun təşkil ediləcəyini dedi.

Azərbaycanın BMT-nin vacib tərəfdaşı olduğunu və "orta güc" dövləti kimi bu qurumun mötəbər tədbirlərinə ev sahibliyi etdiyini vurğulayan Dmitri Şlapaçenko bu xüsusda Bakıda COP və Ümumdünya Şəhərsalma Forumunun təşkil olunduğunu xatırladı. O, bu gün Bakıda "Şəhərlərin bərpası üçün humanitar minatəmizləmə: Təhlükəsiz yaşayış məskənləri üçün mükəmməllik standartlarının müəyyənləşdirilməsi" mövzusunda 4-cü Beynəlxalq Minatəmizləmə Konfransının keçirildiyini deyərək, ölkəmizdə BMT-nin İqlim Həftəsi tədbirinin də olacağını qeyd etdi.

Dmitri Şlapaçenko Azərbaycanın BMT-nin müvafiq qurumlarının fəaliyyətinə verdiyi dəstəyi yüksək qiymətləndirdi.

O, Azərbaycanın hazırda həyata keçirdiyi inkişaf proqramına BMT-nin də öz təcrübəsi ilə dəstək verməyə hazır olduğunu bildirdi, bu xüsusda Qarabağda və Şərqi Zəngəzurda postmünaqişə şəraitində aparılan böyükmiqyaslı işlərin vacibliyinə toxundu.

Minalar problemini qeyd edən Dmitri Şlapaçenko BMT-nin bu məsələdə Azərbaycana dəstək verməyə və təcrübəsini bölüşməyə hazır olduğunu dedi.

Dövlətimizin başçısı da işğaldan azad olunmuş ərazilərimizdə aparılan genişmiqyaslı bərpa və quruculuq işlərindən danışdı, ölkəmizin üzləşdiyi mina probleminin miqyasını qeyd etdi. Prezident İlham Əliyev bunun bərpa-quruculuq işlərinə mane olmasına baxmayaraq, Azərbaycanın minatəmizləmə sahəsində də ardıcıl fəaliyyətini davam etdirdiyini vurğuladı.

Dmitri Şlapaçenko tezliklə Qarabağa səfər edəcəyini bildirdi, BMT Günü ilə əlaqədar Qarabağ Universitetində böyük bir tədbirin keçirilməsinin planlaşdırıldığını qeyd etdi.

Görüşdə Cənubi Qafqaz regionunda transsərhəd çayların ekoloji mühitinin yaxşılaşdırılması və bu sahədə monitorinqlərin aparılması, Xəzər dənizinin suyunun azalması kimi ekoloji məsələlər də müzakirə olundu.

# Bişkekdən verilən mesajlar...

Müasir dünyada dövlətlərin beynəlxalq çəkisi yalnız ərazi, əhali və iqtisadiyyatının miqyası ilə müəyyənləşmir. Ölkənin coğrafi mövqeyi, regional proseslərə təsir imkanları və müxtəlif iqtisadi məkanları birləşdirən nəqliyyat-kommunikasiya xətləri üzərində yerləşməsi də onun strateji əhəmiyyətini müəyyən edən əsas amillərdəndir. Xüsusilə qlobal iqtisadi fəallığın getdikcə daha çox Asiyaya yönəldiyi, yeni nəqliyyat və enerji marşrutlarının iqtisadi maraqlarla yanaşı, geosiyasi əhəmiyyət qazandığı indiki mərhələdə böyük coğrafiyaları bir-birinə bağlayan ölkələrin rolu daha da artır.







## Azərbaycanın strateji mövqeyi...

Azərbaycan məhz belə strateji mövqeyə malik dövlətlərdəndir. Ölkəmizin Avropa ilə Asiyanın kəsişməsində yerləşməsi, Xəzər dənizinə çıxışı və formalaşdırdığı müasir nəqliyyat infrastrukturu ona Mərkəzi Asiya, Cənubi Qafqaz, Türkiyə və Avropa arasında mühüm bağlantı rolunu oynamaq imkanı verir. Azərbaycanın son illərdə beynəlxalq münasibətlər sistemində mövqeyinin möhkəmlənməsi də bu imkanların daha səmərəli reallaşdırılması ilə müşayiət olunur. Bu prosesdə Prezident İlham Əliyevin həyata keçirdiyi müstəqil, ardıcıl və milli maraqlara əsaslanan xarici siyasət mühüm rol oynayır. Bu siyasət Azərbaycanın müxtəlif güc mərkəzləri ilə qarşılıqlı faydalı əməkdaşlıq qurmasına, regional və qlobal proseslərdə fəal iştirakına imkan yaradıb. Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpası isə dövlətimizin milli maraqlarının təmin olunması istiqamətində həyata keçirilən siyasətin mühüm nəticələrindən biridir.

Son illər Azərbaycanın Asiyanın aparıcı dövlətləri ilə siyasi, iqtisadi, nəqliyyat, enerji və humanitar əlaqələri əhəmiyyətli dərəcədə genişlənib. Bu proses ölkəmizin Avrasiya məkanında etibarlı tərəfdaş kimi mövqeyini möhkəmləndirməklə yanaşı, müxtəlif çoxtərəfli platformalarla əməkdaşlığın əhəmiyyətini də artırıb. Bu baxımdan Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) Azərbaycanın diqqət yetirdiyi mühüm beynəlxalq platformalardan biridir. Prezident İlham Əliyevin bugünlərdə Qırğızıstanın paytaxtı Bişkek şəhərində keçirilən ŞƏT-in növbəti sammitində iştirak etməsi deyilənləri təsdiqləyir.

Xatırladaq ki, Prezident İlham Əliyev təxminən bir ay öncə Qırğızıstanda dövlət səfərində olub. Belə ki, Prezidentin bu il iyul ayının sonunda Qırğızıstana dövlət səfəri, avqustun 31-də Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) tədbirlərində iştirak etmək üçün bu ölkəyə işgüzar səfəri münasibətlərin hazırkı inkişaf səviyyəsinin əsas göstəricilərindəndir. Bu səfərlər iki dost və qardaş ölkə arasında əlaqələrin inkişafında mühüm mərhələ kimi dəyərləndirilir. Prezident İlham Əliyev Bişkek şəhərində "ŞƏT plyus" formatında keçirilən görüşdə çıxış zamanı Azərbaycan-Qırğızıstan münasibətlərinin cari ilin iyul ayında imzalanan "Müttəfiqlik münasibətləri haqqında Müqavilə" ilə yeni mərhələyə yüksəlməsini xüsusi vurğulayıb. Dövlətimizin başçısı Qırğızıstanın 2027-2028-ci illər üçün BMT-nin Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsini beynəlxalq ictimaiyyətin Qırğızıstanın siyasətinə verdiyi dəstək kimi dəyərləndirib.

## İlham Əliyevdən BMT Təhlükəsizlik Şurasında islahatlar çağırışı

Ölkə başçısı çıxışında onu da qeyd edib ki, bir ildən bir az çox müddət əvvəl Azərbaycan və Ermənistan sülh sazişinin mətnini paraflayaraq 30 illik münaqişəyə son qoydular: "Beləliklə, çoxillik münaqişə zonası olmuş Cənubi Qafqaz bölgəsi sülh zonasına çevrilməkdədir". Prezident İlham Əliyev BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş 4 qətnaməsinin 30 ildən sonra dövlətimiz tərəfindən icra edildiyi xatırladıb. Onun qeyd etdiyi kimi, Azərbaycan artıq Ermənistana neft məhsulları tədarük edir və üçüncü ölkələrin yüklərinin tranzitini təmin edir. Ermənistanla birlikdə qarşılıqlı ticarətin həcminin artırılması, onun nomenklaturasının genişləndirilməsi və yeni yerüstü nəqliyyat kommunikasiyalarının yaradılması üzərində iş aparılır. "Lakin təəssüf ki, BMT bu qətnamələrin icrasında heç bir rol oynamayıb. Azərbaycan öz suverenliyini və ərazi bütövlüyünü tamamilə özü bərpa edib. BMT Təhlükəsizlik Şurasının qətnamələrinin qısa müddətdə icrası üçün müxtəlif mexanizmlərin hazırlanması tələb olunur. Bu həyata keçirilərsə, BMT-nin nüfuzunun və təşkilatın münaqişələrin nizamlanmasındakı rolunun artmasına xidmət edər. Son vaxtlara qədər dörd il ərzində Qoşulmama Hərəkatına rəhbərlik etmiş Azərbaycan bundan sonra da beynəlxalq məsələlərdə çoxtərəflilik prinsiplərinin möhkəmləndirilməsinə öz töhfəsini verəcək", - deyə ölkə başçısı çıxışında vurğulayıb.

Qeyd edək ki, BMT-də islahatların aparılması müasir dövrün əsas çağırışlarından biridir. Xüsusilə, beynəlxalq müstəvidə mövcud qlobal problemlər BMT Təhlükəsizlik Şurasında yeniliklərin edilməsini ciddi zərurətə çevirib. BMT Təhlükəsizlik Şurası 1945-ci ildə yaradılıb. Quruma 5 daimi üzv - ABŞ, Böyük Britaniya, Fransa, Rusiya, Çin və 10 qeyri-daimi üzv daxildir. BMT daxilində islahatlardan və təşkilatın beynəlxalq hadisələrə, proseslərə effektiv təsir mexanizmlərinin yaradılmasından bəhs olunarkən bir sıra məqamlara nəzər salmaq lazımdır. Bunlar, ilk növbədə, BMT Nizamnaməsində və Təhlükəsizlik Şurasının strukturunda dəyişikliklərin edilməsidir. Qeyd etdiyimiz kimi, ötən dövr ərzində dünyada baş verən hadisələr BMT-də islahatların zəruri olduğunu bir daha təsdiqləyir. Çünki təşkilat faktiki olaraq hegemon güc mərkəzlərinin geosiyasi inhisarındadır. Xüsusilə də Təhlükəsizlik Şurasında yer alan daimi üzvlər istədikləri vaxt hansısa qərara veto qoya bilirlər. Onlar veto hüququndan istifadə edərək subyektiv şəkildə öz maraqlarına uyğun olmayan məsələlərin qəbulunu əngəlləyirlər. Burada beynəlxalq hüququn subyekti, BMT-nin üzvü olan digər müstəqil dövlətlərin rəyləri, mövqeləri, demək olar ki, nəzərə alınmır. Bundan əlavə, BMT Təhlükəsizlik Şurasında hərbi-siyasi və strateji-təhlükəsizlik məsələləri ilə əlaqədar qərar qəbul edərkən ikili standartlara yol verilir. Bu barədə kifayət qədər nümunə var. BMT Təhlükəsizlik Şurasının qətnamələrinin dərhal icra edilməsi, sülhə məcburetmə mexanizmlərinin tətbiqi ilə əlaqədar Bosniya və Herseqovina, Yuqoslaviya, Liviya və digər presedentlər mövcuddur. Lakin Azərbaycana münasibətdə Ermənistanın işğal etdiyi torpaqlarımızı qeyd-şərtsiz azad etməsi ilə bağlı 1993-cü ildə qəbul olunmuş qətnamələr 27 il kağız üzərində qaldı. Bu tipli ikili yanaşmalara son qoyulması üçün BMT strukturlarında islahatların aparılması zərurətdir.

## Verilən mesajlar dünya üçün önəmlidir

Yeri gəlmişkən, sammitdə iştirak edən BMT Baş katibi Antonio Quterreş də təşkilatda islahatların aparılması çağırışları ilə həmrəy olduğunu bəyan edib. Bu mənada, Prezident İlham Əliyevin nüfuzlu beynəlxalq platforma olan ŞƏT-in Zirvə Görüşündə BMT-də islahatların aparılması zərurəti ilə bağlı çağırışı beynəlxalq birlik üçün mühüm mesajdır.

Nəzərə alaq ki, Azərbaycanın ŞƏT-lə əməkdaşlığı siyasi dialoqla yanaşı, təhlükəsizlik, iqtisadiyyat və humanitar sahələri də əhatə edir. Terrorçuluq, ekstremizm, separatçılıq, narkotik vasitələrin qanunsuz dövriyyəsi, kibercinayətkarlıq və transmilli mütəşəkkil cinayətkarlıqla mübarizə təhlükəsizlik gündəliyində mühüm yer tutur. İqtisadi sahədə isə ticarət və investisiyalarla yanaşı, energetika, kənd təsərrüfatı, nəqliyyat və kommunikasiyalar, telekommunikasiya, kiçik və orta biznes, multimodal dəhlizlər və tranzit imkanlarının inkişafı ön plana çıxır. Humanitar əməkdaşlıq da münasibətlərin mühüm istiqamətlərindəndir. Mədəniyyət, təhsil, elm, səhiyyə, turizm, sivilizasiyalararası dialoq, multikulturalizm və tolerantlıq sahələrində əlaqələr tərəfdaşlığın yalnız siyasi və iqtisadi maraqlara söykənmədiyini göstərir. Bütün bunların fonunda Prezident İlham Əliyevin sammitdə çıxışı zamanı verdiyi mesajlar dünya birliyi üçün böyük önəm kəsb edir.

*Nardar BAYRAMLI*

# Mehriban Əliyevanın təşəbbüsü ilə...

## TƏBİB sistemində 72 mindən çox tibb işçisi əməkhaqqı artımına sevinəcək



Azərbaycan sosial dövlətdir və hər zaman öz vətəndaşlarının yanında olmaq nümunəsi sərgiləyir. Ölkəmizdə kifayət qədər geniş əhatə dairəsinə malik olan sosial siyasətin ən mühüm istiqamətlərindən biri kimi səhiyyə sisteminə mütəmadi qaydada dövlət qayğısı göstərilməsi bunun əyani təsdiqidir.

Bu siyasətin davamı olaraq Birinci vitse-prezident Mehriban xanım Əliyeva tibb işçilərinin maddi rifahının yaxşılaşdırılması, əməyinin yüksək qiymətləndirilməsi və səhiyyə sistemində insan kapitalının gücləndirilməsi məqsədilə TƏBİB sistemində çalışan tibb işçilərinin əməkhaqlarının artırılması təşəbbüsü ilə çıxış edib. Öz növbəsində Prezident İlham Əliyev bu təşəbbüsü müsbət qarşılayıb və icrası ilə bağlı müvafiq tapşırıq verib.

## Müstəqil Azərbaycanda müasir səhiyyə infrastrukturunun qurulması böyük nailiyyətdir

Ölkəmizdə Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsinə uyğun olaraq səhiyyə sisteminin inkişafı, tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi və tibb işçilərinin sosial rifahının yaxşılaşdırılması dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirilib. Sahənin spesifikliyi nəzərə alınaraq bu sahədə həyata keçirilən islahatlar barədə qərarlar qabaqcıl dünya ölkələrinin təcrübəsi nəzərə alınmaqla verilir və bir-birini tamamlayır. Əsas hədəf isə əhaliyə göstərilən tibb xidmətlərinin keyfiyyətini yüksəltmək, əlçatanlığı artırmaq və vətəndaş məmnunluğunu təmin etməkdir. Qısa müstəqillik tarixində respublikamızda müasir səhiyyə sisteminin formalaşdırılması, sahənin inkişafını şərtləndirən möhkəm hüquqi baza yaradılması, müxtəlif illəri əhatə edən Dövlət proqramlarının həyata keçirilməsi və əlbəttə ki, yüksəksəviyyəli infrastruktur qurulması böyük uğurdur.

Son 22 ildə böyük həcmlərdə vəsait qoyuluşu hesabına respublikamızda səhiyyə sisteminin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər görülüb. Belə tədbirlər sırasında ölkə üzrə yeni müasir xəstəxanaların tikilməsini, mövcud səhiyyə müəssisələrinin əsaslı şəkildə yenidən qurulmasını, kadr hazırlığına diqqətin artırılmasını xüsusi qeyd edə bilərik. Bəhs olunan dövrdə ölkə ərazisində müasir tibb müəssisələrinin yaradılması ilə bağlı statistika kifayət qədər zəngindir. Respublikamızda təxminən 750 tibb müəssisəsi tikilib və yaxud yenidən qurulub. Bu gün ölkəmizdə "Talassemiya" Mərkəzi, Milli Onkologiya Mərkəzinin Uşaq Klinikası, Respublika Uroloji Klinik Xəstəxanası, Yeni Klinika, ən son texnologiyalarla təchiz olunmuş diaqnostika mərkəzləri və s. əhaliyə lazımi xidmətlər göstərir.

Diqqətəlayiq haldır ki, yeni yaradılan səhiyyə müəssisələrinin bir çoxu respublikanın bölgələrinin payına düşür. Bəhs olunan dövrdə Azərbaycanın ancaq bölgələrində 22 yeni xəstəxana, 15 diaqnostika-müalicə mərkəzi inşa edilib, təxminən 30 mərkəzi rayon xəstəxanası əsaslı təmir olunub. Paytaxtda və ayrı-ayrı regionlarda yeni xəstəxanaların inşası və yaxud mövcud tibb müəssisələrinin əsaslı şəkildə yenidən qurulması davam etdirilir. Beləliklə, ancaq bölgələrdə təxminən 70 müasir tibb ocağı istifadəyə verilib. Eyni zamanda, bütün ölkə üzrə yaradılan müasir tibb ocaqlarının maddi-texniki bazası da kifayət qədər yüksək səviyyədədir - onların hamısında dünyanın ən qabaqcıl şirkətlərinin istehsalı olan yüksək səviyyəli avadanlıqlar quraşdırılıb ki, bu da müxtəlif xəstəliklərin erkən mərhələdə müəyyənləşdirilməsinə və səmərəli şəkildə müalicəsinə imkan verir.




Eyni zamanda, səhiyyə sitemində ciddi institusional islahatlar həyata keçirilir ki, bu da ilk növbədə insanlara göstərilən tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi və əlçatanlığın təmin olunması məqsədi daşıyır. Sığorta sisteminin tətbiqi bu sahədə ən böyük islahat tədbirlərindəndir. İcbari tibbi sığorta üzrə xidmətlər zərfi paketinə təcili və təxirəsalınmaz tibbi yardım, ilkin tibbi-sanitariya, ambulator və stasionar xidmətlər, funksional-diaqnostik və laborator müayinələr, fizioterapiya, cərrahi əməliyyatlar və dərman təminatı daxildir. Hər kateqoriya üçün məqsədəuyğun şərtlər, göndəriş qaydaları və xidmət provayderləri siyahısı agentliyin rəsmi portalında yerləşdirilib. Xidmətlər zərfi 3 min 344 tibbi xidməti əhatə edir ki, bu da ölkənin səhiyyə potensialının geniş spektrini tamamlayır. Xüsusi olaraq qeyd olunmalıdır ki, xidmətlər zərfinə mütəmadi olaraq yeni tibbi xidmətlər əlavə edilir.

Respublikamızda Prezident İlham Əliyevin 2018-ci il 20 dekabr tarixli müvafiq fərmanı ilə Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) yaradılması əhaliyə göstərilən səhiyyə xidmətlərinin səmərəliliyini artırmaq məqsədi daşıyır. TƏBİB-in fəaliyyətinin əsas hədəfi tabeliyində olan tibb müəssisələrində tibbi xidmətlərin yüksək səviyyədə təşkilini təmin etməkdən və tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi üçün tədbirlər görməkdən ibarətdir. TƏBİB həmçinin tibb müəssisələrinin fəaliyyətini icbari tibbi sığorta sisteminin tələblərinə uyğunlaşdırır.

Səhiyyə sahəsində bir sıra dövlət proqramlarının reallaşdırılmasında respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun müstəsna xidmətlərini də xüsusi vurğulamaq lazımdır. Belə ki, fond diabetli, talassemiyalı xəstələrə qayğı və onların müalicəsinin təşkilində, qanvermə aksiyalarının keçirilməsində, ana və uşaqların sağlamlığının qorunması işinin yaxşılaşdırılmasında, infrastruktur quruculuğunda bir çox böyük layihələrə imza atıb.

## Tibb işçilərinin sosial rifahının yüksəldilməsi istiqamətində atılan növbəti mühüm addım

Yüksək diqqət göstərilən ən vacib istiqamətlərdən biri də kadr hazırlığı məsələsidir. Ümumdünya Səhiyyə Təşkilatının proqnozuna əsasən, 2030-cu ildə dünya üzrə tibb işçilərinin çatışmazlığı 11 milyon nəfərə çatacaq. Azərbaycanda hər 10 min əhaliyə düşən həkim sayı 34,5-dir ki, bu say səhiyyə sisteminin qarşısında duran ehtiyacları təmin edən bir rəqəmdir. Qarşıda duran çağırış isə bu sayın regionlar üzrə qeyri-bərabər bölünməsi və disproporsiyanın olmasıdır. Bakı, Gəncə, Sumqayıt, Abşeronda bu say səhiyyə sistemini qane edir. Hətta Bakıda hər 10 min nəfərə 101,7 həkim düşür.

Hazırda region xəstəxanalarında kadrların optimal yerləşdirilməsi və ölkə üzrə tibb işçilərinin sosial rifah halının daha da yaxşılaşdırılması istiqamətində məqsədyönlü tədbirlər görülür. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın irəli sürdüyü və dövlətimizin başçısının dəstəklədiyi təşəbbüs ölkəmizdə tibb işçilərinin sosial rifahının yüksəldilməsi istiqamətində növbəti mühüm addımdır.

Yeni əməkhaqqı qaydaları 2026-cı il sentyabrın 1-dən tətbiq olunacaq və TƏBİB-in tabeliyindəki tibb müəssisələrində çalışan 72 min 212 tibb işçisini əhatə edəcək. İslahat nəticəsində TƏBİB sistemi üzrə illik əməkhaqqı fondu 189 milyon manat artırılıb. Bu, tibb işçilərinin sosial rifahının gücləndirilməsinə və yeni əməkhaqqı mexanizmlərinin tətbiqinə yönəldilən əlavə maliyyə təminatını əks etdirir.

Əməkhaqqı artımları vəzifə, ixtisas, iş yükü, fəaliyyət göstəriciləri və regionlarda mövcud kadr təminatı nəzərə alınmaqla differensiallaşdırılacaq. İslahat xüsusilə ilkin səhiyyə, təcili tibbi yardım, anesteziologiya-reanimatologiya xidmətləri, eləcə də regionlarda kadr çatışmazlığı müşahidə edilən dar ixtisaslar üzrə çalışan həkimlər üçün əhəmiyyətli artımlar, nəzərdə tutur. O cümlədən regionlarda kadr çatışmazlığı olan ixtisaslar üzrə xüsusi stimullaşdırıcı əlavələr və müəyyən xidmətlər üzrə işin nəticələrinə görə əlavə ödənişlərinə 1,3 əmsalı tətbiq olunacaq. Bu mexanizmlər həkimlərin regionlara cəlb olunmasına və tibbi xidmətlərə əlçatanlığın artırılmasına xidmət edir

Qeyd edək ki, son illərdə bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilib: 2023-cü ildən TƏBİB tabeliyindəki müəssisələrdə maaşlar artırılıb, 2025-ci ildə minimum əməkhaqqının artımı ilə əlaqədar növbəti yüksəlişlər olub, Səhiyyə Nazirliyinin tabeliyində olan körpələr evləri işçilərinin tarif maaşlarına isə 1,5-3 dəfə artım əmsalları tətbiq edilib. Yeni islahat bu prosesin davamıdır. İslahatın əsas məqsədləri aşağıdakılardır:

- Tibb işçilərinin sosial rifahının gücləndirilməsi,
- Peşənin cəlbediciliyinin artırılması,
- Regionlarda kadr təminatının yaxşılaşdırılması,
- Vətəndaş məmnunluğunun yüksəldilməsi.

***Mübariz FEYİZLİ***

# DİN çağırış edir...



## Dövlət qurumlarının adından edilən zənglərə aldanmayın

Kiberdələduzlar tərəfindən müxtəlif dövlət qurumlarının adından vətəndaşlara zəng edilərək, bank hesablarında olan pul vəsaitlərinin təhlükəsizliyi bəhanəsi ilə onların digər hesablara köçürülməsi barədə saxta məlumatlar verilir.

AZƏRTAC xəbər verir ki, bu barədə Daxili İşlər Nazirliyinin (DİN) əhaliyə çağırışında bildirilib.

"Vətəndaşları müxtəlif xarici ölkələrdən dövlət qurumlarının adından edilən zəng və göndərilən mesajlara qarşı diqqətli olmağa, şəxsi və bank məlumatlarını qarşı tərəfə təqdim etməməyə, mobil telefonlarına göndərilən təsdiq kodlarını paylaşmamağa, tanımadıqları keçidlərə daxil olmamağa, eləcə də bu cür müraciətlər əsasında hər hansı ödəniş və ya maliyyə əməliyyatı həyata keçirməməyə çağırırıq.

Unutmaq olmaz ki, dövlət qurumları vətəndaşlardan zəng, sosial şəbəkələr və mesajlaşma tətbiqləri vasitəsilə bank kartlarının məxfi məlumatlarını, CVV/CVC və OTP kodlarını tələb etmirlər. Bu məlumatların kənar şəxslərə ötürülməsi bank hesablarındakı pul vəsaitlərinin oğurlanması ilə nəticələnə bilər.

Kiberdələduzluqla bağlı hər hansı halla qarşılaşdığınız zaman "102" Xidməti-Zəng Mərkəzinə və ya DİN-in rəsmi sosial şəbəkə hesablarına müraciət edə bilərsiniz", - deyə çağırışda vurğulanıb.

# BTQ dekolonizasiya prosesini qlobal platformalarda müdafiə edir

## Oskar Temaru Maohi Nuinin tam suverenliyi ilə bağlı bəyanat hazırlayıb

Maohi Nui (Fransız Polineziyası) Fransa müstəmləkəçiliyinə son qoyacaq və suveren dövlət kimi tanınması istiqamətində beynəlxalq platformalarda fəaliyyətini davam etdirəcək.




Bakı Təşəbbüs Qrupundan verilən məlumata görə, bunu Maohi Nuinin müstəqilliyi uğrunda mübarizə aparan "Tavini Huiraatira" partiyasının lideri Oskar Temaru bildirib.

O, ölkəsinin onilliklər boyu davam edən Fransa müstəmləkəçiliyinə son qoyacağını və suveren dövlət kimi tanınması istiqamətində beynəlxalq platformalarda fəaliyyətini davam etdirəcəklərini qeyd edib.

Oskar Temaru Maohi Nuinin tam suverenliyi ilə bağlı bəyanat hazırlayıb. Sənəd oktyabr ayında Nyu-Yorkda BMT Baş Assambleyasının Siyasi məsələlər və dekolonizasiya üzrə Dördüncü Komitəsinin iclasları çərçivəsində təqdim ediləcək.

Partiya liderinin fikrincə, Maohi Nuinin rəsmi Parisdən qaynaqlanan siyasi məhdudiyyətlərdən və institusional asılılıqdan çıxmasının əsas yolu xalqın öz gələcəyini sərbəst müəyyənləşdirməsi və suveren dövlət quruculuğu prosesinə başlamasıdır.

O hesab edir ki, Fransanın ərazi üzərindəki nəzarəti artıq tarixi baxımdan əsassız və qanunsuz xarakter daşıyır, ərazinin dekolonizasiyası isə artıq beynəlxalq gündəlikdə yer alıb və bu proses BMT çərçivəsində davam etdirilməlidir.

Qeyd edək ki, Fransanın uzun illər ərzində göstərdiyi müqavimətə baxmayaraq, Fransız Polineziyası 2013-cü ildə BMT Baş Assambleyasının qərarı ilə yenidən özünü idarə etməyən ərazilər siyahısına daxil edilib.

Oskar Temaru məsələ ilə əlaqədar petisiyaya start verməyi planlaşdırır. Petisiyanın məqsədi Ma'ohi Nuinin Fransa müstəmləkəsindən azad olaraq müstəqillik qazanmasının məhz əhalinin özünün siyasi iradəsi olduğunu və bu tələbin geniş xalq dəstəyinə malik olduğunu bütün dünyaya nümayiş etdirməkdir. Temaru bu təşəbbüs üçün seçicilərin əksəriyyətinin dəstəyini prosesin legitimliyi baxımından vacib şərt kimi qiymətləndirir.

Bu tarixi mübarizədə Bakı Təşəbbüs Qrupu (BTQ) "Maohi Nui" xalqının öz müqəddəratını təyinetmə hüququnu və dekolonizasiya prosesini qlobal platformalarda qətiyyətlə müdafiə edir. Tərəfdaşlığın institusional əsasını təşkil edən sənəd 26 aprel 2024-cü ildə BMT-nin Vyanadakı ofisində Bakı Təşəbbüs Qrupu ilə "Tavini Huiraatira" Partiyası arasında imzalanıb.

Fransanın uzun illər ərzində Fransız Polineziyası ərazisində apardığı nüvə sınaqlarının yerli əhaliyə vurduğu ağır tibbi və ekoloji nəticələri, o cümlədən onkoloji xəstəliklərin sürətlə yayılması və ərazinin radioaktiv çirklənməsi Fransa müstəmləkəçiliyinin fəsadlarının bariz sübutudur.

# Azərbaycan beynəlxalq platformalarda fəal təmsil olunur

## Qoşulmama Hərəkatının əsas prinsipləri ölkəmizin xarici siyasətinin fundamental istiqamətləri ilə tam uzlaşır

Azərbaycanın xarici siyasət kursunda parlament diplomatiyasının da mühüm rolu var. Ümumən, müasir beynəlxalq münasibətlər sistemində parlament diplomatiyasının artan nüfuzu artıq reallıqdır. Məhz bu tendensiyanın nəticəsidir ki, son illərdə qanunverici orqan vasitəsilə atılan addımlar Azərbaycanın dövlət strategiyasının mühüm komponentinə çevrilib. Parlament diplomatiyasının məqsədi dövlətlər və regionlar arasında əlaqələrin və inteqrasiyanın dərinləşdirilməsinə nail olmaqdır.

Azərbaycan parlamenti hər zaman dövlət başçısının yürütdüyü daxili və xarici siyasi kursu birmənalı şəkildə dəstəkləyir. Görülən məqsədyönlü işlər nəticəsində ölkəmizin beynəlxalq platformalardakı mövqeyi daha da sarsılmaz hala gəlib, dünya ölkələri ilə qarşılıqlı etimada əsaslanan əməkdaşlıq münasibətləri dərinləşib. Hakimiyyətin mühüm qolu olan parlamentin işində beynəlxalq fəaliyyət prioritet istiqamət kimi ön plana çıxır. Milli Məclisin beynəlxalq fəaliyyəti dövlətin xarici siyasət prioritetlərinin qlobal müstəvidə müdafiəsi missiyasıdır. Bu istiqamətdə ikitərəfli və çoxşaxəli parlament təşkilatları ilə əlaqələrin inkişafı istiqamətində sistemli tədbirlər görülür. Eyni zamanda, millət vəkilləri Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması və milli maraqlarımızın təbliği istiqamətində üzərlərinə düşən missiyanı layiqincə yerinə yetirirlər.

Milli Məclis bir çox nüfuzlu təşkilatların - ATƏT PA, MDB PA, Asiya PA, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı PA, İslam Əməkdaşlıq Təşkilatı PA, GUAM PA, TÜRKPA, Parlamentlərarası İttifaq və NATO PA-nın işində aktiv təmsil olunur. Məhz bu təşkilatlar çərçivəsində aparılan uğurlu əməkdaşlıq fəaliyyəti nəticəsində vaxtilə Ermənistanın apardığı işğalçılıq siyasətini ifşa edən qərarlar qəbul edilib. Eyni zamanda, Milli Məclis dünyanın bir çox ölkələrinin parlamentləri ilə əlaqələri genişləndirir. Parlament diplomatiyasının əsas göstəricilərindən biri də Milli Məclisin müxtəlif beynəlxalq platformalarda və tədbirlərdə təmsilçiliyidir.

Yeri gəlmişkən, bugünlərdə Milli Məclisin sədri Sahibə Qafarova Qoşulmama Hərəkatına üzv ölkələrin Dövlət və Hökumət Başçılarının Birinci Konfransının 65 illiyinə həsr olunmuş Yüksək Səviyyəli Xatirə Görüşündə iştirak etmək üçün Serbiyada işgüzar səfərdə olub və həmin tədbirdə çıxış edib. O qeyd edib ki, ötən 65 il ərzində Qoşulmama Hərəkatı üzv dövlətlərin ortaq maraq və məramlarının irəlilədilməsi, habelə qlobal çağırışların həllinə kollektiv töhfə verilməsi üçün mühüm beynəlxalq platformaya çevrilib. Qoşulmama Hərəkatının əsas prinsipləri Azərbaycanın xarici siyasətinin fundamental istiqamətləri ilə tam uzlaşır. Azərbaycan 2019-2024-cü illərdə Hərəkata sədrliyi dövründə də bu prinsipləri rəhbər tutaraq təşkilatın həmrəyliyinin, beynəlxalq nüfuzunun və institusional imkanlarının gücləndirilməsinə mühüm töhfələr verib.




S.Qafarova diqqətə çatdırıb ki, 2019-cu ildə Bakıda keçirilmiş Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşündə Prezident İlham Əliyev Azərbaycanın Bandunq Prinsiplərinə, beynəlxalq hüquqa və ədalətə sadiqliyini, eləcə də Hərəkatın birliyinin, həmrəyliyinin və beynəlxalq nüfuzunun möhkəmləndirilməsinə qətiyyətli münasibətini bir daha təsdiqləyib.

Milli Məclisin sədri Azərbaycanın sədrliyi dövründə Hərəkatın üzv dövlətləri arasında həmrəyliyin və əməkdaşlığın gücləndirilməsinə xüsusi diqqət yetirildiyini bildirib. Onun sözlərinə görə, bu dövrdə Qoşulmama Hərəkatı ilə BMT arasında yüksəksəviyyəli görüşlərin keçirilməsi təşəbbüsü irəli sürülüb, COVID-19 pandemiyasına və onun nəticələrinə qarşı əlaqələndirilmiş beynəlxalq reaksiyanın formalaşdırılmasına mühüm töhfə verilib. Azərbaycan sədrliyi dövründə 80-dən artıq dövlətə maliyyə və humanitar yardım göstərib, müxtəlif ölkələrə texniki dəstək və təhsil qrantları təqdim edib. Bununla yanaşı, Hərəkatın institusional inkişafına, onun fəaliyyətinin gələcək nəsillər və müxtəlif təsisatlar arasında genişləndirilməsinə xüsusi diqqət göstərilib.

S.Qafarova Qoşulmama Hərəkatının qarşısında duran əsas vəzifələrə də toxunub. O bildirib ki, Hərəkat öz birliyini və həmrəyliyini qorumaqla yanaşı, beynəlxalq səsini daha da gücləndirməli, sülhə, davamlı inkişafa və daha ədalətli, bərabərhüquqlu dünya nizamının formalaşmasına töhfəsini artırmalıdır.

Qeyd edək ki, səfər çərçivəsində Milli Məclisin sədri Serbiya Milli Assambleyasının sədri Anna Brnabiçlə də görüşüb. Görüşdə Azərbaycan-Serbiya münasibətlərinin mövcud vəziyyəti və inkişaf perspektivləri, parlamentlərarası əlaqələrin genişləndirilməsi, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub. Sahibə Qafarova ölkələrimiz arasında siyasi dialoqun yüksək səviyyədə olduğunu qeyd edərək, qarşılıqlı etimad və hörmətə əsaslanan münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirib. Parlamentin sədri yüksəksəviyyəli qarşılıqlı səfərlərin və görüşlərin ikitərəfli əlaqələrin inkişafında mühüm rol oynadığını vurğulayıb. O, Azərbaycanın Qoşulmama Hərəkatına 4 illik sədrliyi dövründə həyata keçirdiyi təşəbbüslərdən, Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin fəaliyyətindən danışıb.

Anna Brnabiç Azərbaycan-Serbiya münasibətlərinin inkişafından məmnunluğunu ifadə edib, parlamentlərarası əlaqələrin də müsbət dinamika ilə davam etdiyini bildirib. O, ötən ilin sentyabrında Azərbaycana rəsmi səfərini məmnunluqla xatırlayaraq, səfər çərçivəsində keçirilmiş görüşlərin ikitərəfli əlaqələrin daha da möhkəmləndirilməsi baxımından əhəmiyyətini qeyd edib.

Tədbir çərçivəsində Somali Prezidenti Həsən Şeyx Mahmudla görüş zamanı isə dövlətlərarası münasibətlərin mühüm istiqaməti olan parlamentlərarası əlaqələrin mühüm əhəmiyyəti qeyd olunub. Spiker Sahibə Qafarova Azərbaycan Milli Məclisinin Somali parlamenti ilə əlaqələri daha da inkişaf etdirməyə hazır olduğunu bildirib. Milli Məclisin sədri Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin gördüyü işlər barədə fikirlərini bölüşüb.

Azərbaycana səfərini və Prezident İlham Əliyevlə görüşünü məmnunluqla xatırlayan Prezident Həsən Şeyx Mahmud həmin səfər zamanı aparılmış danışıqların və imzalanmış sənədlərin əhəmiyyətini diqqətə çatdırıb.

Bundan əlavə, S.Qafarova  Qana Respublikasının Prezidenti Con Dramani Mahama, Uqandanın Vitse-prezidenti Cessika Alupo, Mozambik Respublikasının Baş naziri Maria Benvinda Levi və s. ölkələrin rəsmi şəxsləri ilə görüşüb. Görşlərdə ikitərəfli əlaqələr və parlamentlərarası münasibətlər müzakirə olunub.

Göründüyü kimi, son illər həyata keçirilən parlament diplomatiyası nəticəsində Azərbaycanın beynəlxalq münasibətlər sistemində və beynəlxalq platformalarda mövqeyini daha da möhkəmləndirib. Artıq Azərbaycanda beynəlxalq və regional təşkilatların parlament şəbəkələrinin toplantılarının keçirilməsi ənənəsi də formalaşıb. Son illər parlament diplomatiyası çərçivəsində Azərbaycan bir çox beynəlxalq səviyyəli tədbirlərə və toplantılara ev sahibliyi edib. Eyni zamanda, dünyanın ən müxtəlif ölkələrinin parlament nümayəndələri ölkəmizə səfər edir və bu səfərlər qarşılıqlıdır. Dünya ölkələrinin parlamentləri ilə sıx əməkdaşlıq və dostluq münasibətləri formalaşır. Təbii ki, bu cür əlaqələrin qurulması ölkələr arasında münasibətlərin inkişafına xidmət etməklə yanaşı eyni zamanda Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında, ölkəmizin beynəlxalq platformalarda dəstəklənməsində təsirli amildir.

***Nardar BAYRAMLI***

# 34 milyard manatdan çox...

## İqtisadiyyata kredit qoyuluşu artsa da, biznes üçün faiz dərəcələri yüksək olaraq qalır

2026-cı il avqustun 1-nə Azərbaycan iqtisadiyyatına kredit qoyuluşu 34 milyard 155,1 milyon manat təşkil edib. Bu, əvvəlki ayla müqayisədə 0,8 faiz, yanvar ayı ilə müqayisədə isə 6,9 faiz çoxdur. Son bir illik nisbətdə isə kredit axınları 12,9 faiz artıb. Kredit qoyuluşunun 23 milyard 593,9 milyon manatı və yaxud 69,1 faizi özəl bankların payına düşüb. Bu, 1 il əvvələ nisbətən 11,8 faiz çoxdur. Mərkəzi Bankın (MB) məlumatına görə, bu dövrdə dövlət banklarının kredit qoyuluşu isə 8 milyard 501,4 milyon manat təşkil edib və illik müqayisədə 14,9 faiz artıb.

Avqustun 1-nə olan dövrdə bank olmayan kredit təşkilatlarının (BOKT) kredit qoyuluşu isə 2 milyard 059,8 milyon manat olub. BOKT-lar son bir ildə iqtisadiyyata pul axınını 17,1 faiz artırıb və ümumi kredit qoyuluşundakı xüsusi çəkisi 5,8 faizdən 6 faizə yüksəlib.

### Kreditlər ən çox ticarət sektoruna yönəldilib

Banklar tərəfindən bizneslərə verilmiş kreditlərin həcmi isə 17 milyard 333 milyon manat olub. Biznes kreditlərinin ən böyük hissəsi - 4 milyard 213 milyon manatı və ya 24,3 faizi ticarət müəssisələrinə verilmiş kreditlərin payına düşüb. Sənaye sahələrinə verilmiş kreditlərin həcmi 2 milyard 722 milyon manat (15,7 faiz), nəqliyyat sahəsinə verilmiş kreditlərin həcmi 2 milyard 686 milyon manat (15,5 faiz) təşkil edib. Biznes sahələri arasında dördüncü yeri 1 milyard 988 milyon manat (11,5 faiz) kredit ilə kənd təsərrüfatı, beşinci yeri isə 1 milyard 823 milyon manat (10,5 faiz)  kreditlə tikinti sahəsi tutub. Ən az biznes krediti isə informasiya və rabitə sahəsinə verilib - 793 milyon manat və ya ümumi kredit portfelinin 4,6 faizi qədər. Digər qeyri-istehsal və xidmət sahələrinə verilmiş biznes kreditlərinin həcmi 3 milyard 108 milyon manat olmaqla, ümumi biznes kreditlərinin 18 faizini təşkil edib.

Mərkəzi Bank kredit aktivliyinin artımı fonunda ölkə iqtisadiyyatı üzrə artım proqnozlarını yeniləyib. 2026-cı ildə iqtisadi artımın 0,5 faiz, qeyri-neft-qaz sektoru üzrə ÜDM artımının isə 2,4 faiz olacağını proqnozlaşdırılır. 2027-ci ildə isə iqtisadi artımın 2,6 faiz, qeyri-neft-qaz sektoru üzrə artımın isə 3,9 faiz təşkil edəcəyi gözlənilir.




### Bölgələrdə kredit dərəcələri 20 faizdən yüksəkdir

Kreditlərin dərəcələri üzrə müqayisələr onu təsdiqləyir ki, hələ də faiz həddi yüksəkdir. Hətta biznes kreditləri bir sıra hallarda az qala istehlak kreditlərinin dərəcələrindən yüksəkdir. Məsələ ondadır ki, bank və kredit təşkilatlarının cari ilin ötən ayları ərzində kreditlərdən əldə etdiyi faiz gəlirləri də artıb. Yanvar-iyul aylarında banklar müştərilərə verilmiş kreditlərdən 2 milyard 538 milyon manat faiz gəlirləri əldə edib. Bu, 2025-ci ilin eyni dövrü ilə müqayisədə 370,3 milyon manat və ya 16,7 faiz çoxdur. Kreditlərdən gəlirlər bankların cəmi faiz gəlirlərinin böyük hissəsini - təxminən 80 faizini təşkil edir.

Göründüyü kimi, bankların kreditlər üzrə faiz gəlirləri kifayət qədər çoxdur. Bu rəqəm ona dəlalət edir ki, bank sektoru daha münasib şərtlərlə kreditlər verə, faiz dərəcələrini aşağı sala bilər. Yəni faizləri aşağı salmaqla, yenə də gəlir əldə etmək potensialları var. Mərkəzi Bankın uçot dərəcəsini aşağı salması və bankların kredit portfelinin böyüməsi faizləri artırmağa yox, azaltmağa imkan yaradır. Halbuki son bir ildə nəinki faizlər aşağı düşüb, əksinə, artıb. Bu, bölgələr üzrə kredit resurslarında daha açıq görünür. Ölkə üzrə orta faiz dərəcəsi 14,2 faiz olsa da, regionlarda bu göstərici 18-20 faizdir. Hətta bəzi bölgələrdə daha yüksəkdir. Belə ki, kredit faizlərinin ən yüksək olduğu iqtisadi rayonların sırasında Dağlıq Şirvan bölgəsi ilk yeri tutur. Bu, iqtisadi rayonda kreditlər üzrə orta faiz dərəcəsi 20,65 faiz təşkil edir. İkinci yerdə Mərkəzi Aran iqtisadi rayonu qərarlaşıb. Burada bu göstərici 20,24 faizdir. Qazax-Tovuz iqtisadi rayonunda bu rəqəm 20,06 faizə, Şirvan-Salyan iqtisadi rayonunda 19,84 faizə, Lənkəran-Astara iqtisadi rayonunda orta faiz dərəcəsi 19,8 faizə bərabərdir. Qarabağ iqtisadi rayonunda kredit dərəcəsi 19,7, Mil-Muğan iqtisadi rayonunda isə 19,4 faiz təşkil edir. Ən aşağı göstəricilər isə Bakıdadır- 12,75 faiz. Paytaxda kreditlərin dərəcəsinin aşağı olmasının əsas səbəbi faizi aşağı olan dövlət kreditlərinin (ipoteka kreditləri və daxili ipotekalar) daha çox olması, eləcə də sahibkarlığa güzəşt xətti ilə maliyyələşmə, həmçinin neft şirkətlərinə ayrılan dollarla aşağı faiz dərəcəli kreditlərin əldə edilməsidir. Şərqi Zəngəzur (13,6 faiz) və Naxçıvan (15,5 faiz) iqtisadi rayonları da nisbətən aşağı kredit dərəcəsinə malikdir. Burada da güzəştli maliyyələşmə və digər dövlət kreditlərinə çıxışın nisbətən əlçatan olması faiz stavkasının aşağı enməsinə səbəb olmaqdadır.

### Banklar pensiyaçıların da kredit təklifinə müsbət yanaşır

Yeri gəlmişkən, 2026-cı ilin yeddi ayı ərzində sosial xarakterli kreditləşmədə də artım qeydə alınıb. Belə ki, bankların yaşı 65 və daha çox olan, yəni pensiyaçılara verdiyi kreditlərin həcmində də artımlar baş verib. Ən çox pensiya krediti verən maliyyə təşkilatı "Kapital Bank"dır. Bu bank 70-73 yaşlı şəxslərə qədər kredit ayırır, hətta əmanət təminatlı kredit üçün yaş həddi qoyulmayıb, 90 yaşadək şəxslər də həmin qaydalar üzrə kredit götürmək imkanına malikdir. Beynəlxalq Bank (BB) isə maksimum 70 yaşa qədər olan pensiyaçılara kredit verir. "Xalq Bank"da istehlak kreditində yaş həddi 65-70 yaş arasındadır. "Unibank"da nağd kredit və mikrokreditlər 70 yaşa qədər verilir. Eləcə də "Bank Respublika"da kredit üçün müraciət 70 yaşadək qoyulub. "Accesbank" pensiyaçılara kredit verir, 70 yaşa qədər. "Rabitəbank"da qaydalar əvvəlki banklarla oxşardır - təqaüdçülər 70 yaşa qədər götürə bilərlər. Həmçinin "TuranBank" və "Yapı Kredi Bank", "Express Bank"da 70 yaşadək pensiyaçılara kredit təklifinə müsbət baxılır.

Bir məqamı da xatırladaq ki, sentyabr ayından etibarən banklar arasında rəqabəti gücləndirmək üçün vətəndaşlara pensiya və maaş verilən bankı seçmək hüququ veriləcək. Yəni vətəndaşlar maaş və pensiyanı alacaqları bankı özləri seçəcəklər. Belə vəziyyətdə müştəriləri daha yaxşı şərtlərlə cəlb etmək üçün banklar müəyyən şərtləri yumşaldacaqlar. Həmin tədbirlərdən biri də kredit yaşının artırılması olacaq.

***E.CƏFƏRLİ***

# Ölkəmiz Rəqəmsal Əməkdaşlıq Təşkilatına üzv olub

## Bu, ölkəmizin beynəlxalq innovasiya xəritəsində mövqeyini yeni mərhələyə çıxaracaq




Avqustun 28-də Rəqəmsal Əməkdaşlıq Təşkilatının (Digital Cooperation Organization - DCO) Ər-Riyadda keçirilən iclasında Azərbaycanın bu quruma üzv olması barədə qərar qəbul edilib. Azərbaycan da daxil olmaqla DCO-ya üzv ölkələrin sayı 16-dan 24-ə çatdırılıb. Bununla da 980 milyon əhalisi olan bu rəqəmsal platforma böyük bir coğrafiyanı əhatə etməklə, Azərbaycanın beynəlxalq innovasiya və rəqəmsal iqtisadiyyat xəritəsindəki mövqeyini keyfiyyətcə yeni mərhələyə çıxarmış olacaq. Qeyd edək ki, respublikamız 2022-ci ildən DCO-da müşahidəçi statusunda təmsil olunmaqdadır.

### "GovTech Yetkinliyi İndeksi"ndə yüksək nəticə

Azərbaycan son illərdə rəqəmsal transformasiya sahəsində mühüm addımlar atıb, mühüm strateji sənədlər qəbul edib. İnnovasiya infrastrukturunun yaradılması, texnoparkların inkişafı, innovativ layihələr üçün maliyyə mexanizmlərinin əlçatanlığının artırılması, İKT sahəsində insan kapitalının yetişdirilməsi sahələrində elektron intibaha keçid sahəsində iradəli addımlar atılır, möhkəm rəqəmsal infrastruktur qurulmaqdadır. "Telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi" çərçivəsində müəyyən edilmiş hədəflərə nail olunub. Son 4 il ərzində ölkədə orta internet sürəti 7 dəfə artaraq 12.81 Mbit/saniyədən 90 Mbit/saniyəyədək yüksəlib. "Onlayn Azərbaycan" layihəsinin icrası sayəsində müasir IMS platforması ilə işləyən GPON avadanlığı və optik infrastruktur qurulub. Ölkə ərazisinin fiber-optik şəbəkə ilə geniş əhatə olunması tam başa çatdırılıb. Yüksək standartlara cavab verən "Hökumət buludu" istifadəyə verilib və data mərkəzinə keçid edən qurumların sayı 3 dəfə artaraq 148-ə çatıb. Hazırda mövcud data mərkəzlərindən gücü 3 dəfə artıq olan yeni data mərkəzlərinin inşası davam etdirilir. Biometrik rəqəmsal imzanın (SİMA) uğurlu tətbiqi isə onlayn identifikasiyanı sadələşdirərək, dövlət və özəl sektor xidmətlərinin məsafədən göstərilməsini təmin edib. Habelə "Mygov" platforması yenidən qurularaq 2,5 milyondan artıq vətəndaşa xidmət göstərir. Hazırda sənədlərin fiziki təqdim edilməsinə ehtiyac aradan qaldırılaraq 2,3 milyondan artıq rəqəmsal sənəd "Mygov" platforması vasitəsilə təqdim edilməkdədir.

Ölkəmizin innovasiya ekosisteminin inkişafı ilə bağlı da güclü infrastruktur qurulub, biznes üçün bir sıra güzəştlər edilib. Vergi və Miqrasiya məcəllələrində, "Gömrük tarifi haqqında" və "Sosial sığorta haqqında" qanunlarda edilmiş dəyişikliklərə əsasən, texnologiyalar parkının rezidentləri vergi, gömrük və sosial güzəştlərlə əhatə olunublar.

Dünya Bankının ötən il dərc etdiyi "GovTech Yetkinliyi İndeksi"nin hesabatında yüksək nəticələr əldə edən Azərbaycan yüksək rəqəmsallaşma səviyyəsinə görə ən yaxşı ölkələr qrupunda yer alıb.

### Rəqəmsal İnkişaf Şurası - yeni cəmiyyət quruculuğunda növbəti mərhələ

Dövlət başçısının müvafiq sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial iqtisadi inkişaf Strategiyası" rəqəmsal inkişafı prioritet istiqamətlərdən biri kimi müəyyən edilib və bir neçə ay əvvəl Rəqəmsal İnkişaf Şurası yaradılıb. Şura qısa müddət ərzində öz fəaliyyət sahəsinə aid strateji məsələlərin həllində mühüm addımlar atıb.

Son 5 ayda digər istiqamətlərdə də xeyli müsbət nəticələr əldə edilib və dövlət qurumlarının vahid rəqəmsal platformaya inteqrasiyası sürətlənib, səhiyyə, gömrük və təhsil sahələrini əhatə edən, digər dövlət qurumları ilə birgə həyata keçirilməsi nəzərdə tutulan potensial süni intellekt həlləri müəyyən olunub. Qısa müddət ərzində "e-Sosial", "e-Təbib" və "e-Su" tətbiqləri tam şəkildə platformaya inteqrasiya olunub. Bundan əlavə, "e-Polis", "Mobil Notariat", "Azərişıq", "Reseptim", "e-Səhiyyə", "ASAN müraciət" tətbiqlərinin bir çox xidmətləri inteqrasiya edilib və ilin sonunadək onların bütün xidmətlərinin tam şəkildə "mygov" üzərindən təqdim edilməsi planlaşdırılır.

Rəqəmsal inkişafın əsas yeniliklərindən biri dövlət xidmətlərinin təqdim edilməsində pərakəndəliyin aradan qaldırılması və vahid mərkəzləşdirilmiş sistemə keçiddir. Bu sxemə əsasən, bütün rəqəmsal dövlət xidmətləri, o cümlədən sənədlərin yalnız "mygov" və "mygov Biznes" platformaları vasitəsilə vətəndaşlara və sahibkarlara təqdim olunması, ayrı-ayrı qurumların fərdi portal və mobil tətbiqlərinin vahid ekosistemdə birləşdirilməsi sayəsində də ardıcıl işlər aparılır. Rəqəmsal mühitdə biznes-dövlət münasibətlərinin optimallaşdırılması xüsusi əhəmiyyət kəsb edir. Dövlət, biznes və cəmiyyətin birgə fəaliyyəti iqtisadi həmrəyliyi təmin etməklə, rəqəmsal iqtisadiyyat quruculuğuna güclü təkan verir. Bu cəhətdən rəqəmsal transformasiyada özəl sektorun liderliyinin gücləndirilməsi, ailə-biznes modellərinin və fərdi sənaye istedadlarının, xüsusilə də startap və süni zəka sahəsində fəaliyyətinin stimullaşdırılması üçün çevik platformalar qurulmaqdadır.

Rəqəmsal hədəfin ən başlıca istiqamətlərindən biri də innovasiya ekosisteminin maliyyə dayanıqlığının gücləndirilməsi, İKT ixracının artırılmasıdır. Bu çərçivədə vençur maliyyələşdirilməsi, "mələk investorlar" institutunun hüquqi bazasının formalaşdırılması, həmçinin yerli və beynəlxalq vençur kapitalı fondlarının iştirakı ilə "Fondlar fondu"nun yaradılması innovativ təfəkkürün mühüm sütunu kimi dəyərləndirilə bilər. Qlobal istedadların cəlbi üçün "Rəqəmsal səyyah" və "Rəqəmsal istedad" vizalarının tətbiqi, eləcə də frilanserlər üçün vergi güzəştləri Azərbaycanın regional texnologiya mərkəzi kimi mövqeyinin gücləndirilməsində əla fürsət, rəqəmsal investisiya mühitinin təmin edilməsi deməkdir. Bütün bu kompleks tədbirlər Azərbaycanda yeni sənaye cəmiyyətinə və rəqəmsal transformasiya quruculuğuna keçidi daha da tezləşdirməyə geniş imkanlar yaradır.

### Geniş fürsətlər

Rəqəmsal Əməkdaşlıq Təşkilatına üzvlük Azərbaycanın mövcud rəqəmsal siyasətini beynəlxalq miqyasda genişlənməsi və yeni tərəfdaşlarla rəqəmsal proqramlarda birgə iştirakı üçün əlverişli mühit formalaşdırır. Ölkəmiz üçün xüsusi əhəmiyyət daşıyan digər tərəfi DCO-nun qurucu və aparıcı dövlətlərinin əhəmiyyətli hissəsinin Azərbaycana dost ərəb ölkələri olmasıdır. Ərəb dünyasında son 10 ildə rəqəmsal transformasiya yalnız xidmətlərin elektronlaşdırılması deyil, iqtisadiyyatın strukturunun dəyişdirilməsi, süni intellekt, data iqtisadiyyatı, milli rəqəmsal identifikasiya, bulud infrastrukturu və insan kapitalının inkişafı ilə birlikdə həyata keçirilib. DCO-nun təsisçisi olan Səudiyyə Ərəbistanının timsalında bu təşəbbüsün miqyasını aydın görmək mümkündür. 2019-cu ildə yaradılan Səudiyyə Məlumat və Süni İntellekt İdarəsi (SDAIA) altı istiqamətli Milli Data və Süni İntellekt Strategiyasını (NSDAI) həyata keçirir. 2026-cı il ölkədə rəsmən "Süni İntellekt İli" elan olunub. Həmin ölkənin HUMAIN təşəbbüsü çərçivəsində elan edilmiş investisiya öhdəlikləri - Google Cloud ilə 10 milyard dollarlıq tərəfdaşlıq, "Blackstone" ilə data mərkəzləri üzrə 3 milyard dollarlıq razılaşma və "NVIDIA"nın çoxillik çip tədarükü müqavilələri daxil olmaqla - məcmu şəkildə 100 milyard dolları keçib. Azərbaycanın Səudiyyə Ərəbistanı ilə bu sahədə geniş əməkdaşlığının olması həmin təcrübənin tətbiqi üçün mühüm fürsətlər deməkdir.

### Transxəzər Fiber-Optik Kabeli - "Rəqəmsal İpək Yolu"nun əsas xətti

Azərbaycan regionda rəqəmsal tranzit xəttinin qurulmasında da səylərini dayanmadan gücləndirir. Qazaxıstan hökuməti ilə birgə Avropa ilə Asiya arasında yeni rəqəmsal dəhlizin yaradılmasını nəzərdə tutan "Rəqəmsal İpək Yolu" (Digital Silk Way) layihəsinin mühüm komponenti olan Transxəzər Fiber-Optik Kabel Xəttinin tikintisini həyata keçirir. Layihəyə əsasən, Sumqayıt və Aktau şəhərləri arasında Xəzər dənizinin dibi ilə 380 km uzunluğunda sualtı mobil kommunikasiya xətti inşa olunacaq. Bu rabitə platforması çoxterabitli məlumatların ötürülməsini və 400 terabit/s-ə qədər yüksəksürətli internet bağlantısının qurulmasını təmin edəcək.

Transxəzər xətti təkcə iki ölkənin kommunikasiya layihəsi deyil, eyni zamanda, müxtəlif ölkələrin, o cümlədən Gürcüstan, Türkiyə və Türkmənistan ərazilərindən keçməklə Asiya-Azərbaycan-Avropa regionları arasında yeni bağlantı hesab edilir. Bu rəqəmsal infrastruktur landşaftı həmin ölkələr arasında məlumatların ötürülməsində yüksək zolaq genişliyi və minimal gecikməni təmin edəcək.

Bu layihə Xəzər-Asiya regionlarında ən optimal və qısa marşrut olmaqla ölkələr arasında kommunikasiya-rəqəmsal bağlantını təmin edəcək, bölgədə çalışan biznes icmasının fəaliyyətində də yeni imkanlar açacaq. Asiyadan Avropaya yayılacaq rəqəmsal xidmətlərin və məhsulların artımı sürətlənməklə bölgəyə yeni tərəfdaşların cəlb olunmasına şərait yaradacaq. Bu çoxtərəfli platforma isə Azərbaycan və Qazaxıstanın inkişafında, eləcə də digər region ölkələrinin dünya miqyasında mövqelərinin yüksəldilməsində mühüm rol oynayacaq.

Beləliklə, DCO-ya üzvlük Azərbaycanın Cənubi Qafqaz regionunda rəqəmsal iqtisadiyyat mərkəzinə çevrilməsi və Digital Silk Way tranziti qurmasında institusional və praktiki dəstəkverici rol oynayacaq, strateji hədəflərə çatmasında yardımçı olacaq.

***E.CƏFƏRLİ***

# ANAMA ilə ARMAC arasında Anlaşma Memorandumu




Humanitar minatəmizləmə sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu ANAMA-nın İdarə Heyətinin sədri Vüqar Süleymanov və ARMAC-ın icraçı direktoru Rotna But tərəfindən imzalanıb.

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) və BMT-nin Azərbaycandakı nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Şəhərlərin bərpası üçün humanitar minatəmizləmə: Təhlükəsiz yaşayış məskənləri üçün mükəmməllik standartlarının müəyyənləşdirilməsi" mövzusunda IV Beynəlxalq Minatəmizləmə Konfransı çərçivəsində ANAMA ilə Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyasına (ASEAN) üzv ölkələrin mina təhlükəsi ilə mübarizə üzrə regional təşkilatı olan ASEAN Regional Minatəmizləmə Mərkəzi (ARMAC) arasında Anlaşma Memorandumu imzalanıb.

Sənəd iki qurum arasında humanitar minatəmizləmə sahəsində əməkdaşlığın inkişaf etdirilməsi, təcrübə və bilik mübadiləsinin genişləndirilməsi, qabaqcıl yanaşmaların paylaşılması və qarşılıqlı maraq doğuran istiqamətlər üzrə birgə fəaliyyətin təşviqini nəzərdə tutur.

İmzalanan sənəd Azərbaycanın mina probleminin həlli istiqamətində beynəlxalq əməkdaşlığın genişləndirilməsi, eləcə də müxtəlif regionlarda fəaliyyət göstərən minatəmizləmə qurumları arasında bilik və təcrübə mübadiləsinin gücləndirilməsi baxımından əhəmiyyətli addımdır.

# Dünya Bankı Azərbaycana qrant ayırıb




Dünya Bankı Azərbaycana "İqlimə davamlı və səmərəli su təchizatı" layihəsinin hazırlanması üçün 1,5 milyon ABŞ dolları dəyərində qrant ayırıb.

Layihələrin Hazırlanması üzrə Trast Fondunun qrant sazişini 2026-cı il avqustun 31-də Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin (ADSEA) sədri Zaur Mikayılov və Dünya Bankının Cənubi Qafqaz üzrə bölməsinin direktoru Roland Prays imzalayıblar.

Belə ki, vəsait Bakıda su təchizatı sistemini yaxşılaşdırmaq məqsədi daşıyan irimiqyaslı layihənin hazırlanmasına dəstək göstərilməsinə yönəldilib. Maliyyələşmə xüsusilə texniki-iqtisadi əsaslandırmanın (TİƏ) aparılmasına, prioritet investisiyaların müəyyənləşdirilməsinə, su ehtiyatlarının idarə olunması üzrə rəqəmsal həllərin tətbiqinə, enerji səmərəliliyinin artırılmasına və su təchizatındakı fasilələrin aradan qaldırılmasına sərf olunacaq.

Qrant iki əsas istiqamət üzrə məsləhət xidmətləri xərclərinin 100 faizini qarşılayır: hissə A (TİƏ və satınalmalara dəstək): texniki-iqtisadi əsaslandırmanın aparılması, rəqəmsallaşma və enerji baxımından səmərəli həllərə xüsusi diqqət yetirməklə Bakının su sistemi üçün investisiya planının işlənib hazırlanması, habelə gələcək podratçılar üçün tender sənədlərinin hazırlanması. Hissə B (Ekologiya və sosial standartlar): buraya Dünya Bankının 10 ekoloji və sosial standartına uyğun olaraq çərçivə sənədlərinin hazırlanması, eləcə də Ekoloji və Sosial Öhdəliklər Planının həyata keçirilməsi daxildir.

Bundan başqa, vəsaitin bir hissəsi layihənin ekoloji və sosial sənədlərinin Dünya Bankının standartlarına uyğun hazırlanması üçün istifadə ediləcək.

Qrant çərçivəsində tədbirlərin icrasını isə ADSEA həyata keçirir. Agentlik daxilində 8 müvafiq ekspertdən (ekologiya, sosial məsələlər, satınalmalar, texniki mühəndislik, maliyyə menecmenti, iqlim dəyişikliyi, kommunikasiyalar və monitorinq üzrə) ibarət ixtisaslaşmış işçi qrupu yaradılır. Qrant vəsaitlərinin istifadəsi dövrü 2027-ci il dekabrın 31-nə qədər nəzərdə tutulub.

# Fransada seçki ajiotajı - sağçılarla solçular bir-biri ilə rəqabətdə

Builki yay Fransa üçün fərqli bir mövsümdür. Bu ölkədə adətən yay ayları siyasi durğunluq dövrü kimi səciyyələndirilir - insanlar siyasi proseslərdən uzaqlaşırlar, daha çox istirahət etməyə üstünlük verirlər. Lakin bu il fransızların belə ənənələrindən uzaqlaşdığı müşahidə edilir. Söhbət heç də insanların meşə yanğınlarının fəsadlarına görə istirahətlərini təxirə salmalarından yox, beşinci respublikada 2027-ci ildə keçiriləcək növbəti prezident seçkilərinə hazırlıq mərhələsinin başlamasından gedir.

Artıq seçkilərlə bağlı prosedurlar bəllidir. Konstitusiyaya görə, səsvermə hazırkı prezidentin səlahiyyət müddətinin bitməsindən 20-35 gün əvvəl keçirilməlidir. Seçkilər Emmanuel Makronun ikinci prezidentlik müddətinin 14 mayda bitməsinə 12 gün qalmış başa çatacaq. Hökumətin iyulun əvvəlində elan etdiyi kimi, prezident seçkilərinin birinci turu 2027-ci il 18 aprel bazar günü keçiriləcək, ikinci tur isə 2 may bazar gününə təyin olunub.

Beləliklə, Fransada E.Makron erasının başa çatmasına və Yelisey Sarayının yeni sahibinin müəyyənləşəcəyi tarixə bir ildən də az vaxt qalır. Vaxt daraldıqca isə seçki ehtirasları qızışır. Yeni-yeni namizədlərin adı bəlli olur - son günlərədək namizədliyini rəsmi qaydada irəli sürənlərin sayı 25-ə çatıb. Bəri başdan demək mümkündür ki, Yelisey Sarayına doğru kritik marafonda bir sıra tanınmış siyasi fiqurlarla yanaşı, indiyədək ambisiyasız görünən namizədlər də yer alacaqlar. Əsas məqamlardan biri isə namizədlərin seçki təbliğatında önə çəkdikləri məqamlarla bağlıdır. Müşahidə edilən tendensiya ondan ibarətdir ki, namizədlər seçki təbliğatlarını ölkənin ab-havasına, cəmiyyət üçün həssas məqamlara uyğun qurmaqla, marafonun sonunadək irəliləmək niyyətindədirlər.

## Seçkilərdə qolbaqsız iştirak hüququ qazanan Marin Lö Pen hicaba qarşı

Milli Birlik partiyasının lideri Marin Lö Pen Fransada yaxşı tanınan siyasi fiqurdur. İndiyədək verdiyi bəyanatlara istinad etməklə onu ifrat sağçıların ən ifrat nümayəndəsi kimi təqdim etmək daha doğru olardı. Qeyd edək ki, Marin Lö Pen Makronun ən ciddi tənqidçilərindəndir. O, Fransanın daxili və xarici siyasətdəki uğursuzluqlarını, hökumət böhranlarını, maliyyə çatışmazlığını, artan sosial-iqtisadi çətinlikləri, inflyasiyanın sürətlənməsini, ölkənin beynəlxalq nüfuzunun zəifləməsini Makron siyasətinin "amansız nəticələri" kimi səciyyələndirir.

Prezidentliyə ən iddialı namizədlərdən sayılan Marin Lö Penin seçkiqabağı təbliğat kampaniyasında yenidən irqçi baxışlarını önə çəkməsinin tərəfdarlarına varmazdan öncə onun namizəd kimi qeydə alınması ilə bağlı yaranan qalmaqala diqqət çəkmək istərdik. Məsələ burasındadır ki, Paris Apellyasiya Məhkəməsi Marin Lö Peni Milli Birlik Partiyasının Avropa Parlamentindəki köməkçiləri ilə bağlı iş üzrə təqsirli bilib. Məhkəmə onun seçilmək hüququndan məhrumedilmə müddətini azaldaraq, 2027-ci il prezident seçkilərində namizədliyini mümkün sayıb. Lö Pen üç il müddətinə azadlıqdan məhrum edilib, bunun bir ili elektron qolbaq altında çəkilməli, həmçinin 100 min avro cərimə ödənilməlidir.

Qərardan sonra Marin Lö Pen Kassasiya Məhkəməsinə müraciət edib. Bu müraciət əsasında da onun seçkilərdə elektron qolbaqsız iştirak etmək istəyi təmin olunub.

Paris Apellyasiya Məhkəməsi yanında baş prokuror Mari-Süzan Lö Ko bildirib ki, Milli Birlik Partiyasının lideri Marin Lö Pen 2027-ci il prezident seçkiləri üzrə kampaniyasına elektron nəzarət qolbağı olmadan başlayacaq. Onun sözlərinə görə, Kassasiya Məhkəməsinə edilən şikayət apellyasiya instansiyasının hökmünün icrasını müvəqqəti dayandırır.

TF1 telekanalına müsahibəsində baş prokuror bildirib: "Kassasiya şikayəti verildiyi andan etibarən Apellyasiya Məhkəməsinin qərarını icra etməyəcəyəm. Buna görə də Marin Lö Pen seçki kampaniyasına elektron qolbaq olmadan başlayacaq".

Mari-Süzan Lö Ko əlavə edib ki, əgər Kassasiya Məhkəməsi 2027-ci il prezident seçkilərindən əvvəl qərar qəbul edərək hökmünü qüvvədə saxlasa, Marin Lö Pen kampaniyanın son mərhələsində elektron qolbaq daşımalı ola bilər. Həmçinin o, prezident seçilsə və qərar bundan sonra çıxarılsa, dövlət başçısının toxunulmazlığı səbəbindən cəzanın icrası təxirə salınacaq.

Kasassiya Məhkəməsinə müraciətdən sonra Marin Lö Pen namizədliyini rəsmən təsdiqləyib və seçki kampaniyasının rəsmi internet səhifəsini istifadəyə verib. O, seçki kampaniyasının şüarını belə müəyyənləşdirib: "Fransa üçün dirçəliş!"

Milli Birlik partiyasının lideri artıq seçki kampaniyası çərçivəsində regionlara səfərlərə gedərək görüşlər də keçirir. O, bu çərçivədə ilk səfərini iyulun 8-də Sart departamentinin La Fleche şəhərinə edib. Görüşdə ona ünvanlanan sualları cavablandıran Lö Pen bildirib ki, məhkəmə onun seçilmək hüququnu qoruyub və bundan sonra diqqətin siyasi məsələlərə yönəlməsini istəyir. Onun sözlərinə görə, fransızlar gündəlik problemlərinə cavab gözləyir və kampaniya proqramlar üzərində qurulmalıdır.

Bu günlərdə isə Marin Lö Pen erkən başladığı seçkiqabağı kampaniyasının əsas şüarını bəyan edib: Onun sözlərinə görə, lideri olduğu Milli Birlik partiyası hakimiyyətə gələcəyi təqdirdə ictimai yerlərdə hicabla bağlı cərimə sanksiyasının tətbiqini planlaşdırır.

Bu barədə Marin Lö Penin əsas tərəfdarlarından olan deputat Jan-Filip Tangi açıqlama verib. O, BFMTV telekanalına açıqlamasında Milli Birliyin islamçı ideologiyaya qarşı mübarizə aparacağını və hicab örtənlərin cəzalandırılacağını bildirib. Deputatın sözlərinə görə, bu addım, həmçinin hicab örtməyə məcbur edilən və bu azadlıq uğrunda həyatını itirən qadınlarla həmrəyliyin ifadəsi olacaq.

Qeyd edək ki, hicaba qarşı mübarizə Milli Birlik partiyasının fəaliyyətinin ənənəvi istiqamətlərindən biridir. Hələ 2022-ci il seçkiləri ərəfəsində Marin Lö Pen Makronla debatda açıq şəkildə bəyan edib: "İctimai yerlərdə hicabın qadağan edilməsinin tərəfdarıyam".

Makron isə debatda rəqibinin fikirlərinə qarşı çıxaraq qadağanın vətəndaş müharibəsinə səbəb ola biləcəyini bildirib: "Siz təklif edirsiniz ki, Fransa ictimai yerlərdə dini simvolu yasaqlayan ilk ölkə olsun", - deyə Fransanın dövlət başçısı vurğulayıb.

Marin Lö Penin və onun partiyasının hicaba qarşı mübarizəsi əslində Avropada irqçi və dözümsüzlük əhval-ruhiyyəsinin ifadəsidir. Son illərdə qoca qitədə belə arzuolunmaz meyllər daha da sürətlənib.



## Sol düşərgədə praymerizin çətin keçəcəyi gözlənilir

Bu arada Fransanın sol təmayüllü Sosialist Partiyasının baş katibi Olivye For da rəsmən prezident seçkilərinə qatılıb. Siyasətçi 30 avqustda Fransanın TFF1 telekanalının canlı yayımında 2027-ci ilin yazında keçiriləcək prezident seçkilərində namizəd olacağını rəsmən elan edib. O, Fransanı "daha ədalətli" etmək və ölkəni yenidən qurmaq məqsədilə bu yarışa qoşulduğunu bildirib. Anasının vyetnamlı, özünün də yarı əcnəbi mənşəli olduğunu vurğulayan For xaricilərin Fransa cəmiyyətinə inteqrasiyasını dəstəklədiyini deyib. Siyasətçi ultra-sağçı lider Marin Le Penin prezident olmasının qarşısını almağı ən mühüm hədəflərdən biri hesab edir.

Lakin Olivye For birbaşa prezidentliyə namizəd olmamışdan öncə rəhbərlik etdiyi partiyanın vahid namizədi statusunu qazanmalıdır. Verilən məlumata görə, Sosialist Partiyası daxilində ilkin səsvermə (praymeriz) 2026-cı ilin oktyabr ayında keçiriləcək. Praymerizdə onunla bərabər Avropa Parlamentinin üzvü Rafael Qlüksman, deputatlar Filip Brün, Jerom Gej və keçmiş nazir Seqolen Royal da mübarizə aparacaq.

Eyni zamanda, Olivye Forun namizədliyini rəsmən irəli sürməsi mərkəzçi-sol düşərgədə gərginlik yaradıb. Belə ki, onun məlum qərarı verməsi ilə Avropa Parlamentinin deputatı Rafael Qlüksmannın prezidentliyə namizədliyini irəli sürmək planı çətinləşib.

Forun qərarınadək 46 yaşlı Qlüksmannın ilkin seçkilərdə qalib gələcəyi ehtimal edilirdi. Son sorğular Qlüksmannın öz siyasi düşərgəsində sağçı Milli Birlik partiyasının lideri Marin Le Penə qarşı ən güclü namizəd olduğunu göstərib. Lakin Forun yarışa qoşulması mübarizəni daha rəqabətli edib.

Sosialistlər Partiyasının səkkiz ildən artıqdır lideri olan Forun Qlüksmanna ciddi rəqib ola biləcəyi bildirilir. Partiya daxilində bəzi deputatlar artıq seçkinin olduqca gərgin keçəcəyini düşünürlər.

Mərkəzçi-sol düşərgənin namizədləri üçün başqa bir narahatlıq doğuran məqam isə keçmiş prezident Fransua Ollandın ikibaşlı bəyanatlar verməsi ilə bağlıdır. O seçkilərdə iştirakını mümkün saydığını açıqlasa da, qərarı dekabr ayında, partiya daxilində ilkin seçkilərdən sonra verəcəyini bildirib. Belə görünür ki, təcrübəli Olland praymerizin nəticələrini gözləyəcək və bundan istifadə etməyə çalışacaq.

*Mübariz FEYİZLİ*



## Hörmüz boğazı bağlanıb?

Hörmüz boğazı keçid tarifləri və müharibə təzminatının ödənilməsi şərtilə bağlanıb.

"Fars" agentliyi xəbər verir ki, bu barədə İran parlamentinin Milli təhlükəsizlik və xarici siyasət komissiyasının sözçüsü İbrahim Rezai bildirib.

"Hörmüz boğazının təhlükəsizliyi üzrə strateji fəaliyyət" layihəsinin araşdırılmasının davamında aşağıdakı məsələlər deputatlar tərəfindən təsdiqlənib", - o bildirib və əlavə edib ki, sığorta, bank zəmanətinin alınması məcburidir.

Bundan başqa, sığorta və xidmət tarifləri, həmçinin İranla müharibədə iştirak etmiş gəmilər tərəfindən təzminat ödənilməlidir:

"Müharibə dövründə hər hansı formada İrana zərər vurmuş ölkələr təzminat ödəmək barədə İranla razılığa gəlməlidir, əks halda onların boğazdan keçidinə icazə verilməyəcək".

Xatırladaq ki, ABŞ Silahlı Qüvvələri yenidən Hörmüz boğazında İran obyektlərinə kütləvi hücum edib. İslam İnqilabı Keşikçiləri Korpusu (SEPAH) və İranın "Xatəm əl-Ənbiya" Hərbi Komandanlığı ABŞ-ın bölgədəki bazalarına raket və dronlarla cavab zərbələrinin endirildiyini açıqlayıb.

## Almaniyanın 3 əyaləti parlament seçkilərinə hazırlaşır

Almaniyada bu ay 3 əyalətdə keçiriləcək regional parlament (Landtag) seçkiləri ölkənin siyasi gündəminin əsas mövzusuna çevrilib.

AZƏRTAC xəbər verir ki, sentyabrın 6-da Saksoniya-Anhalt əyalətində, sentyabrın 20-də isə Berlin və Meklenburq-Ön Pomeraniyada keçiriləcək seçkilər ərəfəsində rəy sorğuları siyasi qüvvələr arasındakı balansın dəyişdiyini göstərir.

Saksoniya-Anhaltda keçiriləcək səsverməyə bir neçə gün qalmış aparılan sorğularda sağçı populist Almaniya üçün Alternativ (AfD) partiyası 42 faiz göstərici ilə birinci sırada qərarlaşıb. Sorğularda Xristian Demokratlar Birliyi (CDU) 22 faiz, Sol Partiya 11 faiz, Sosial Demokratlar Partiyası (SPD) 8, Yaşıllar Partiyası 6 faiz dəstək toplayıb. Azad Demokratlar Partiyası (FDP) və Sahra Vaqenknext İttifaqı (BSW) isə 5 faizlik həddi keçə bilməmək riski ilə üzləşir. Bu həddi keçə bilməyən partiyaların səs itkisi fonunda AfD-nin Landtaqda mandatların mütləq çoxluğunu (50 faizdən çox) əldə etməsi mümkün ssenari kimi qiymətləndirilir. Belə hal baş verərsə, partiya koalisiya tərəfdaşına ehtiyac qalmadan hökuməti formalaşdırmaq imkanı əldə edəcək. Bununla da, İkinci Dünya müharibəsindən sonra Almaniya tarixində ilk dəfə ifrat sağçı bir partiya federal əyalətdə təkbaşına hakimiyyətə gələ bilər.

Ölkədə fəaliyyət göstərən ənənəvi partiyaların AfD ilə koalisiya qurmaqdan imtina siyasəti ("Brandmauer") fonunda bu göstəricilər əyalətdə hökumətin formalaşdırılması prosesini mürəkkəbləşdirir. Aparılan bəzi sorğulara əsasən, əhalinin bir hissəsi sağ populistlərin mövqeyinin güclənməsinin cəmiyyətdəki sosial həmrəyliyə və miqrant mənşəli vətəndaşların inteqrasiyasına mənfi təsir göstərə biləcəyindən narahatlığını ifadə edir.

Əsas narahatlıqlardan birinin AfD-nin Almaniyanın Avropa İttifaqı üzvlüyündən çıxarılması planıdır. İqtisadi sektorun aparıcı nümayəndələri bu ssenarinin reallaşmasının Almaniya iqtisadiyyatı üçün çox ağır nəticələrə səbəb olacağını bildirirlər.

Sentyabrın 20-də seçkilərin keçiriləcəyi Berlin və Meklenburq-Ön Pomeraniyada da gərgin siyasi rəqabət davam edir. Paytaxt Berlində seçki təbliğatının mərkəzində sosial mənzil böhranı və miqrasiya mövzuları durur. Kilsə təşkilatları və ictimai birliklər seçiciləri cəmiyyətdə bölücülük yaradan çıxışlardan uzaq durmağa və demokratik dəyərləri dəstəkləməyə çağırırlar.

İqtisadi birliklər kadr çatışmazlığının yaşandığı regionlarda ksenofob ritorikanın artmasının xarici mütəxəssislərin cəlb olunmasını çətinləşdirə biləcəyindən narahatlıq ifadə edilir.




Almaniyanın əksər əyalətlərində olduğu kimi, Saksoniya-Anhaltda da səhiyyə, tikinti və logistika sektorlarında çalışanların əhəmiyyətli bir hissəsini miqrant mənşəli kadrlar təşkil edir. Bu baxımdan siyasi qeyri-müəyyənliyin xarici investisiyalara və regional artım tempinə müəyyən təsirlərinin ola biləcəyi vurğulanır. Sentyabrda seçkilərin nəticələrinin təkcə regional parlamentlərin tərkibini deyil, həm də federal hökumətin gələcək siyasət prioritetlərini müəyyənləşdirməkdə də mühüm göstərici olacağı bildirilir.

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**




# Həyat bəxş edən qərar

## Orqan donorluğu haqqında bilmədiklərimiz...




### Azərbaycanda proses necə həyata keçirilir?

Bəzən bir insanın həyatı başa çatarkən başqa bir insan üçün həyat yenidən başlayır. Bir ailənin yaşadığı ən ağır itki başqa bir ailənin illərlə gözlədiyi möcüzəyə çevrilə bilir. Müasir tibbin ən böyük nailiyyətlərindən biri hesab olunan orqan transplantasiyası ağır xəstəliklərdən əziyyət çəkən, həyatını yalnız donor orqanına bağlayan insanlar üçün yeni ümid qapısı açır. Lakin bu proses təkcə tibbi əməliyyat deyil. Burada insanın iradəsi, ailənin qərarı, həkimlərin məsuliyyəti, hüquqi normalar, etik prinsiplər və cəmiyyətin məlumatlılığı bir nöqtədə birləşir.

Azərbaycanda son illər orqan donorluğu və transplantasiya sahəsində mühüm dəyişikliklər baş verib. Bu istiqamətdə vahid sistemin formalaşdırılması, donor və resipiyentlərin qeydiyyatı, gözləmə siyahılarının yaradılması və transplantasiya prosesinin koordinasiyası üçün Səhiyyə Nazirliyinin Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzi fəaliyyət göstərir. Mərkəz 2022-ci ildə yaradılıb. Hazırda ölkədə donor orqanına ehtiyacı olan şəxslərin gözləmə siyahısının formalaşdırılması, uyğun donorun müəyyənləşdirilməsi və transplantasiya proseslərinin əlaqələndirilməsi kimi mühüm funksiyaları həyata keçirir.

### Bir donor - bir neçə həyata ümid

Orqan donorluğu deyəndə, ilk növbədə, ölümündən sonra orqanların bağışlanması təsəvvür edilir. Lakin donorluğun canlı donorla bağlı forması da mövcuddur. Xüsusilə, böyrək və qaraciyərin müəyyən hissəsinin transplantasiyası kimi hallarda canlı şəxslər donor ola bilirlər. Bununla belə, bu proses sadə qərardan ibarət deyil və ciddi tibbi, hüquqi və etik yoxlamalardan keçir.

Azərbaycanda canlı donor məsələsində yaxın qohumluq mühüm meyarlardan biridir. Ata, ana, bacı, qardaş, ər, arvad, baba, nənə, nəvə və övlad yaxın qohumlar sırasında göstərilir. Donor və resipiyentin sənədləri hazırlanır, tibbi müayinələr aparılır və uyğunluq müəyyənləşdirilir. Yaxın qohum olmayan şəxsin donor olmaq istəməsi halında isə məsələ Etika Komissiyasının müzakirəsinə təqdim edilir və qərar həmin komissiyanın səlahiyyətində olur.

Burada əsas məqsədlərdən biri orqan donorluğunun könüllülük prinsipinə əsaslanmasını təmin etmək və insan orqanlarının alverinin qarşısını almaqdır. Məhz buna görə canlı donorlarla bağlı prosesdə tibbi yoxlama ilə yanaşı, hüquqi və etik nəzarət mexanizmləri də tətbiq edilir.

### Ölümdən sonra donor olmaq necə mümkündür?

İnsan sağlığında ölümündən sonra orqanlarını bağışlamaq qərarına gəlibsə, bunu rəsmiləşdirə bilər. Hazırda bunun üçün iki əsas yol var. Şəxs Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzinə (ODTKM) müraciət edərək təsdiqlənmiş ərizə formasını doldura bilər. Bundan başqa, elektron qaydada da donor kimi qeydiyyatdan keçmək mümkündür. Səhiyyə Nazirliyinin məlumatına görə, donor olmaq istəyən şəxslər ODTKM-nin rəsmi internet səhifəsində "Donor ol" bölməsindən elektron formanı doldura bilirlər.

Daha bir mühüm məqam isə ondan ibarətdir ki, insan verdiyi qərardan sonradan imtina edə bilər. Yəni donor olmaq barədə razılıq ömürlük məcburiyyət yaratmır. Şəxs öz qərarını dəyişdiyi halda razılığını geri götürə bilər.

Əgər şəxs sağlığında donor olmaq barədə rəsmi yazılı razılıq veribsə, onun ölümündən sonra ailənin əlavə razılığı tələb olunmur. Əgər belə bir irad bildirilməyibsə, qanunvericiliyə uyğun olaraq yaxınlarının yazılı razılığı məsələsi gündəmə gəlir.

### Beyin ölümü nədir və niyə vacibdir?

Orqan transplantasiyası ilə bağlı cəmiyyətdə ən çox yanlış anlaşılmalardan biri "beyin ölümü" anlayışı ilə bağlıdır. Beyin ölümü insanın beyninin, o cümlədən beyin kötüyünün bütün funksiyalarının tam və geridönməz şəkildə dayanması deməkdir. Bu vəziyyət tibbi və hüquqi baxımdan ölüm kimi qəbul edilir. Lakin süni tənəffüs və digər tibbi vasitələrin köməyi ilə ürək döyüntüsü və qan dövranı müəyyən müddət davam edə bildiyindən orqanların transplantasiya üçün yararlı vəziyyətdə saxlanılması mümkün olur.

Başqa sözlə, burada söhbət komada olan və ya ağır vəziyyətdə yaşayan xəstədən getmir. Beyin ölümü geridönməz haldır və onun müəyyənləşdirilməsi xüsusi tibbi prosedurlarla həyata keçirilir.

Bu səbəbdən reanimasiya şöbələrinin və intensiv terapiya komandalarının rolu olduqca böyükdür. Məhz burada potensial donorun vəziyyəti qiymətləndirilir, beyin ölümü diaqnozu təsdiqlənir və bundan sonra transplantasiya prosesi üzrə aidiyyəti qurum məlumatlandırılır.

### Azərbaycan səhiyyəsində tarixi dönüş

2025-ci il Azərbaycan transplantasiya tarixində xüsusi yer tutur. Oktyabrın 31-də ölkədə və Qafqaz regionunda ilk dəfə meyit donorun ürəyinin transplantasiyası həyata keçirilib. Beyin ölümü diaqnozu təsdiqlənən şəxsin ailəsi orqanların bağışlanmasına razılıq verib və donorun ürəyi 2006-cı il təvəllüdlü Tovuz rayon sakininə köçürülüb.

Bu hadisə yalnız bir tibbi əməliyyat kimi qiymətləndirilə bilməz. Çünki burada transplantasiya imkanlarının genişlənməsi ilə yanaşı, cəmiyyətin orqan donorluğuna münasibətində də yeni mərhələnin başlanğıcı görünür.

### Anonimlik qorunur

Mövzu barədə "Yeni Azərbaycan"a açıqlama verən transplantoloq-cərrah Bəxtiyar Şəfiyev orqan donorluğunun yalnız tibbi məsələ olmadığını, eyni zamanda böyük humanist məna daşıdığını vurğulayıb. Onun sözlərinə görə, ölümündən sonra donor olmaq istəyən şəxslərin müraciətlərinin artması cəmiyyətin mövzuya münasibətinin dəyişdiyini göstərir: "Əvvəllər bu müraciətlər az olsa da, insanların məlumatlandırılması ilə donor olmaq istəyənlərin sayı artmağa başlayıb. Orqan donorluğuna münasibətin dəyişməsi üçün ən vacib amillərdən biri düzgün maarifləndirmədir. İnsan bilməlidir ki, donor orqanının kimə veriləcəyini şəxsi münasibətlər deyil, müəyyən edilmiş tibbi meyarlar və vahid informasiya sistemi müəyyən edir.

Orqan transplantasiyası prosesində anonimlik qorunur və donorla resipiyent arasında məlumatların məxfiliyi əsas prinsiplərdən biridir".

### Donor orqanı kimə çatır?

B.Şəfiyevin sözlərinə görə, ictimaiyyət arasında bəzən belə fikir yaranır ki, donor orqanı kiminsə şəxsi qərarı ilə müəyyən xəstəyə verilə bilər: "Əslində isə sistem bunun qarşısını almaq üçün vahid mexanizm əsasında qurulub.

Meyit donorundan götürülən orqanların hansı resipiyentə köçürüləcəyi vahid informasiya sistemi vasitəsilə müəyyən edilir. Burada qan qrupu, toxuma uyğunluğu, xəstənin tibbi vəziyyəti, orqana ehtiyac səviyyəsi və gözləmə siyahısındakı digər meyarlar nəzərə alınır. Sistem uyğun xəstələri tibbi göstəricilər əsasında sıralayır. Bu mexanizmin əsas məqsədi donor orqanlarının bölüşdürülməsində şəffaflığı və ədalətliliyi təmin etməkdir.

### Ən böyük maneə - məlumatsızlıq

Transplantoloq qeyd edib ki, orqan donorluğunun qarşısında yalnız tibbi çətinliklər dayanmır. Bəzən ən böyük maneə cəmiyyətin mövzu haqqında kifayət qədər məlumatlı olmamasıdır: "İnsanlar beyin ölümü ilə koma arasındakı fərqi bilməyə, donor orqanlarının kimə verildiyini, prosesin necə idarə olunduğunu və hüquqi təminatların nədən ibarət olduğunu anlamaya bilərlər. Buna görə də maarifləndirmə transplantasiya sisteminin vacib istiqamətlərindən biridir. İnsanlar bəzən donor olmaqla bağlı qərarın tibbi prosesdə necə aparılmasından tutmuş, ölümün müəyyənləşdirilməsinə qədər müxtəlif mərhələləri tam bilmirlər. Halbuki orqan transplantasiyasında hər bir mərhələ ciddi tibbi protokollar əsasında həyata keçirilir. Xüsusilə, vəfat etmiş şəxsdən orqan götürülməsi məsələsində ölüm faktı müvafiq tibbi meyarlar əsasında müəyyən edilməli və transplantasiya prosesində iştirak edən mütəxəssislər tərəfindən bütün prosedurlar dəqiq şəkildə icra olunmalıdır.

Canlı donor məsələsində isə donorun sağlamlığı birinci planda dayanır. Donor hərtərəfli tibbi müayinədən keçirilir, onun orqanizm üçün riskləri qiymətləndirilir və yalnız tibbi baxımdan mümkün olduğu halda prosesə yol verilir. Donorun qərarı könüllü olmalı, heç bir təzyiq və ya maddi maraqla bağlı olmamalıdır".

***Yeganə BAYRAMOVA***

# "Azercell" təhsildə innovativ yanaşmaların tətbiqini dəstəkləyir




***"SİMM - Süni İntellektlə Müasir Məktəb" layihəsinin praktiki təlim mərhələsinə start verilir***

"Azercell"in dəstəyi ilə həyata keçirilən "SİMM - Süni İntellektlə Müasir Məktəb" layihəsinin növbəti mərhələsinə start verilir. Təlimlər müəllimlərin süni intellekt alətlərindən tədris prosesində səmərəli istifadə üzrə praktiki bacarıqlarının inkişafına yönəlib.

28 avqust - 11 sentyabr tarixlərində keçiriləcək təlimlər Bakı ilə yanaşı, Qarabağ və Gəncəni də əhatə edəcək. Ümumilikdə 120-dən çox müəllim süni intellekt alətlərinin tədrisdə tətbiqi üzrə bilik və praktiki bacarıqlarını inkişaf etdirmək imkanı qazanacaq.

Layihə kaskad modeli əsasında həyata keçirilir. Təlim proqramını uğurla başa vuran müəllimlər qazandıqları bilik və bacarıqları həmkarları ilə bölüşərək süni intellekt alətlərinin tədris prosesində daha geniş tətbiqinə dəstək olacaqlar. Bu model layihə çərçivəsində əldə olunan biliklərin daha geniş müəllim auditoriyasına çatdırılmasına imkan verəcək.

Layihənin sonunda iştirakçıların təlim müddətində əldə etdikləri nəticələr qiymətləndiriləcək. Ən yüksək nəticə göstərən üç müəllim xüsusi mükafatlarla təltif olunacaq.

Ölkənin rəqəmsal ekosisteminin aparıcı qüvvələrindən biri olan "Azercell Telekom" MMC süni intellekt texnologiyalarının tətbiqi və inkişafı üzrə fəaliyyətini "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün Süni İntellekt Strategiyası"nda müəyyən edilmiş prioritetlərə uyğun olaraq genişləndirməyə davam edəcək.

*İdman*

### Kapoeyraçılarımız beynəlxalq turnirdə uğur qazanıblar

Azərbaycanın kapoeyraçıları Türkiyədə keçirilən beynəlxalq turnirdə uğur qazanıblar.

AZƏRTAC xəbər verir ki, Türkiyənin Samsun şəhərində Ümumdünya Kapoeyra Federasiyasının (WCF) təşkilatçılığı ilə kapoeyra üzrə beynəlxalq turnir keçirilib. Yarışda Azərbaycan Kapoeyra Federasiyasının idmançıları da iştirak edərək uğurlu nəticələr göstəriblər.

Uşaq kateqoriyasında Şamxal Hüseynov 1-ci yerə, Sübhan Rəhimzadə və Davud Əli isə 2-ci yerə layiq görülüblər.

Böyüklər arasında Raul Hüseynov, Fərid Səlimov, Bəhlul Nadirov 1-ci yerin sahibi olublar.

Şamxal Hüseynov yarışın ən yaxşı uşaq idmançısı seçilib.




### Karpfişinq üzrə Azərbaycan çempionatı keçiriləcək




Gənclər və İdman Nazirliyi, Azərbaycan Su İdman Növləri Federasiyası (ASİNF) və "Bakı" Balıqçılar və Sualtı Ovçular Klubunun birgə təşkilatçılığı ilə karpfişinq (balıqtutma) üzrə Azərbaycan çempionatı keçiriləcək.

Bu barədə "Report"a ASİNF-dən məlumat verilib.

Yarış sentyabrın 4-6-da təşkil olunacaq. Şamaxı rayonu Çuxuryurd kəndində eyniadlı göldə baş tutacaq turnir çərçivəsində iştirakçılar müəyyən olunmuş qaydalara uyğun olaraq mübarizə aparacaq, nəticələrə əsasən Azərbaycan çempionatının qalib və mükafatçıları müəyyənləşdiriləcək.

Çempionatın yekununda fərqlənənlər medal və müvafiq mükafatlarla təltif olunacaqlar.

Qeyd edək ki, karpfişinq sazan balığının xüsusi üsullarla tutulmasına əsaslanan idman növüdür. Bu idman növündə əsas diqqət yalnız balığın tutulmasına deyil, həm də texniki hazırlığa, taktiki yanaşmaya və iştirakçının səbrinə yönəlir.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4472**
**Sifariş: 1131**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova